# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 16 (3340) Şənbə / 13-15 fevral 2021-ci il Qiymәti 40 qәpik




# 33 il öncə başlayan erməni separatizmi

*1988-ci il fevralın 13-də - düz, 33 il, tam bir qərinə öncə xarici güclər tərəfindən qızışdırılan separatçı, işğalçı xislətli ermənilər Xankəndidə Azərbaycanın ərazi bütövlüyünü təhdid edən ilk mitinqlərə başladılar. Hələ Sovet İttifaqının tabeliyində olan Azərbaycan Daxili İşlər Nazirliyi az sonra o zaman Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlanan torpağımızda sabitliyin pozulmasının qarşısını almaq üçün tədbirlər görməyə çalışdı. Bir qrup yüksəkrütbəli milis zabiti Xankəndinə ezam olundu. Sonradan "Dağlıq Qarabağ münaqişəsi" adı verilən proseslərin başlanğıc mərhələsində şahidi olmuş belə güc strukturu əməkdaşlarından biri də o zaman DİN Baş Cinayət Axtarışı İdarəsində mühüm işlər üzrə baş əməliyyat müvəkkili vəzifəsində çalışan milis podpolkovniki Sadir Məmmədov oldu. Sonradan 1992-ci ilədək Şuşa Rayon Daxili İşlər Şöbəsinin rəisi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Daxili İşlər İdarəsinin rəis müavini və Ağdərə Rayon Polis Şöbəsinin rəisi vəzifələrində xidmət etmiş, Qarabağda "zəhmli polkovnik" ləqəbi ilə tanınan hazırda istefada olan polis polkovniki "Həftə içi"nə müsahibəsində bəziləri hələ o günlər quzu cildində görünən, Xankəndidə və s. yerlərdə vəzifə tutan, Moskva və Bakıdakı bəzi köləxislətli yüksək kürsü sahibləri tərəfindən himayə olunan erməni ekstremistləri ilə mübarizəsindən, ilk şəhidlər verdiyimiz 22 fevral 1988-ci il Əsgəran hadisələrindən və s. danışdı.*



## Xankəndidə Azərbaycanın ərazi bütövlüyünü təhdid edən ilk mitinqlərin qaranlıq qalan məqamları



***- Sadir müəllim, siz Xankəndinə nə vaxt ezam edildiniz? İlk günlər erməni separatçılığıyla bağlı nələrin şahidi oldunuz?***

- 1988-ci il fevralın əvvəllərində zahirən sakitlik olsa da, artıq Ermənistan və Qarabağda Azərbaycana qarşı separatçı hərəkat başlanmışdı. Vəziyyət son dərəcə gərgin idi. Fevralın 11-də Respublika Daxili İşlər Nazirliyi rəhbərliyi CAİ-nin rəis müavini, polis polkovniki Xəlil Quliyev, İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı, podpolkovnik Yaqub Mahmudovu və məni o zaman "Stepanakert" adlanan Xankəndinə xidməti ezamiyyətə göndərdi. Biz şəhərdəki "Qarabağ" mehmanxanasında yerləşdik. Həmin gün və fevralın 13-dəki ilk mitinqlərdən ermənilər artıq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə çıxış edirdilər...

***- Bəs siz - Azərbaycan DİN-in yüksəkvəzifəli əməkdaşlarının respublikamızın ərazi bütövlüyü və suverenliyi əleyhinə olan bu mitinqlərə müdaxilə etmək imkanları yox idi?***

- Təəssüf ki, yox. Moskvadan gələn göstərişlə biz milislərə ekstremist şüarlarla olsa da, Xankəndidə və Dağlıq Qarabağın digər rayonlarında keçirilən dinc etiraz aksiyalarına müdaxilə etməyə izin verilmirdi. Biz yalnız müşahidə edirdik. Yalnız qarşıdurma, atışma, partlayış və s. olduğu halda müdaxilə edə bilərdik...

Bir sözlə, Xankəndidə, vilayətdəki mövcud siyasi, kriminal durumla tanış olub əldə olunan bütün məlumatları operativ şəkildə Bakıya çatdırmağa başladıq. Əməliyyat şəraiti get-gedə mürəkkəbləşirdi...

***- Moskvadan, Bakıdan hansı rəsmi reaksiyalar gəlirdi?***

- Heç nə... Onu deyim ki, bu arada Ermənistanın Qafan rayonundan azərbaycanlıların kütləvi deportasiyası da başlanmışdı. Xankəndidə də aləm qarışmışdı... Bütün baş verənlərə rəğmən Moskva seyrçi mövqedə, Bakı isə gözləyirdi...

1988-ci il fevralın 20-də Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov, Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri Həsən Seyidov, MK-nın katibi Həsən Həsənov Xankəndinə gəldilər.

▸▸ Səh. 2

*Köçəryanın kabinetinə girib onu hədələdim... dedim sən kimsən, hansı əsasla azərbaycanlıları işdən çıxarırsan*

---

MÜSAHİB

## "Xocalı aeroportu Azərbaycanın mülküdür"



**Elman Məmmədov,**
Milli Məclisin deputatı

***İşğaldan azad olunan ərazilərimizdə yeni quruculuq işlərinin aparılması ilə paralel, vandal ermənilərin uzun illər torpaqlarımızda törətdiyi vəhşiliklərin, soyqırımların dünya ictimaiyyətinə çatdırılması prosesi davam edir. Belə bir ərəfədə Azərbaycan xalqı bir daha üzünü dünya ictimaiyyətinə tutaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törədilən soyqırımın da haqqını soruşacaq. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən millət vəkili Elman Məmmədov bir sıra nüanslara diqqət çəkib.***

Torpaqlar azad olunubsa, bu o demək deyil ki, dövlət qaçqın və köçkünün üzərindən əlini çəkəcək, xeyr

▸▸ Səh. 3

---

MÜSAHİB

**Hacı Ceyhun,**
"Ağ çiçəyim" Şirkətlər Qrupunun rəhbəri

■ Bayramlarda, yeni illərdə gülü satılan kəndli bütöv ili gözləyib, tək bir mövsüm üçün gül becərməklə heç nə götürmür.

■ İki şəhididmiz, bir qazimiz var. Müharibəyə 16-17 nəfər işçimiz getmişdi, indi yenə işlərinə qayıdıblar.

■ Güllərin qiymətinin qalxması xaricdən gətirilməsi ilə əlaqədardır. Nə qədər "parniklər" yaradılsa da, bizimkilər çatdırmır.

▸▸ Səh. 8

---

GÜNÜN FOTOSU...



Erməni əsgər avtomatını yox zurnasını götürüb qaçdı...

---

GÜNÜN SİTATI

"Narkotikə görə ikinci dəfə həbs olunanlar İrana qaytarılmasın. Cəzalarını elə burda çəksinlər"



**Aqil Abbas,**
millət vəkili

---

KARİKATURA




Dəmir yumruq yerindədir...

---

## Qiymət artımına qarşı tədbir görülməlidir

**Əli Məsimli,**
Milli Məclisin deputatı

Digər xərclər də qalxacaq. Bu, aşağı təbəqə insanların həyatını daha da çətinləşdirəcək.

▸▸ Səh. 3

---

STATİSTİKA



**■ Regionlarda əyani təhsilə başlayacaq V-IX sinif şagirdlərinin sayı açıqlanıb. Bakı, Abşeron, Sumqayıt və Naxçıvan Muxtar Respublikasını çıxmaqla regionlarda V-IX siniflərdə 426515 şagird təhsil alır.**

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə isə V-IX siniflərdə 199 694, xüsusi məktəblərdə 1 845 nəfər təhsil alır.

---



▸▸ Səh. 5

## Sevgililər günü öncəsi qızıl bazarı

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Murad Nizami oğlu Nəcəfbəylinin Azərbaycan Respublikasının Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə, Rasim Şəmsəddin oğlu Rzayev Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.

***

**Prezident İlham Əliyev "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin və Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi haqqında sərəncam imzalayıb.**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş siyahıda nəzərdə tutulan aşağıdakı dövlət müəssisələri Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin:

1.1. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti;

1.2. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti;

1.3. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti;

1.4. Bakı Nəqliyyat Agentliyinin tabeliyindəki "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestis.

***

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri rütbəsi verilib:

Məmmədov Azər Oqtay oğlu - İdxal-İxrac Əməliyyatları üzrə Nəzarət Baş İdarəsinin rəisi

Şirinov Natiq Telman oğlu - İqtisadi Təhlil və Uçota Nəzarət Baş İdarəsinin rəisi.

## Bu mallara aksiz dərəcələri tətbiq ediləcək

**Azərbaycanda bir neçə mallara aksiz dərəcələri tətbiq ediləcək. Bununla bağlı məsələ Milli Məclisin iclasında müzakirə edilən Vergi Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.**

Dəyişikliyə əsasən, aşağıdakı dərəcələrin tətbiq edilməsi təklif edilir:

- Qəlyan üçün tütünlər və istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, "homogenləşdirilmiş" və ya "bərpa edilmiş" tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər - hər kiloqramına 30,0 manat;

- Qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları - 1000 ədədinə 12,9 manat.

Dəyşiklik müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

## Bakıda daha 2 "ASAN xidmət" açılacaq



**Bu il Bakıda daha 2 "ASAN xidmət" və 1 "ASAN Kommunal" mərkəzinin açılışı planlaşdırılır.**

Bu barədə hafta.az-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, həmçinin Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Xatırladaq ki, hazırda ölkəmizdə 20 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 5-i Bakı şəhərində olmaqla, digərləri Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

## Müsahib

# 33 il öncə başlayan erməni separatizmi

əvvəli 1-ci səhifədə

Sevindik ki, yəqin, qəti tədbirlər görüləcək. Əksinə, fevralın 23-də DQMV Xalq Deputatları Sovetinin sessiyası çağırıldı, Azərbaycana qarşı xeyli loyal mövqedə olan Boris Gevorkovu vəzifəsindən azad edib, qatı millətçi Henrix Poqosyanı vilayət partiya komitəsinin birinci katibi seçdilər. Bu sessiyanın qərarları göstərdi ki, DQMV-də yaranmış vəziyyətə bütün kanallarla Moskvadan və Yerevandan rəhbərlik edilir. Poqosyan hakimiyyətə gələndən sonra mitinqlər daha da gücləndi. Xankəndinə ezam olunmuş Azərbaycan milisləri Poqosyanın tülkü hiyləsi və təkidi ilə oradan çıxarıldı. Guya bununla da vəziyyət sabitləşəcək, ermənilər sakitləşəcəkdi. Hadisələrin belə anlaşılmaz şəkil alması əhalini, xüsusən, Şuşa, Ağdam camaatını və nəinki onları hətta bütün Azərbaycanı da qəzəbləndirirdi...

***- Sizin özünüzün şəxsən DİN rəhbərliyinə verdiyiniz məlumatlar necə cavablandırılırdı?***

- Yadımdadır ki, 1988-ci ilin fevralın 13-də, yəni ilk kütləvi mitinq günü Azərbaycan Daxili İşlər nazirinin müavini, general-mayor Kamil Məmmədov Xankəndinə gəldi. Generala vəziyyətin son dərəcə ciddi olduğunu, təcili tədbirlər görülməsə, vəziyyətin daha da ağırlaşacağını məruzə etdim. Erməni əsilli milis əməkdaşları mitinqlərdə və iğtişaşlarda fəal iştirak edirdilər, DQMV Daxili İşlər İdarəsinin rəisi A.İsaqulov onlara açıq dəstək verirdi. Mən Xankəndidə 17 fevral 1988-ci ildə keçirilmiş müşavirədə çıxış edib A.İsaqulovun erməni sakinlərini zorla tətillərə, mitinqlərə çıxardanlardan biri olduğunu göstərdim. O zaman Gəncə şəhər DİI-nin rəisi olan rəhmətlik Zahid Dünyamalıyev vəziyyəti yerindəcə öyrənmək üçün teztez Xankəndinə gəlirdi.

A.İsaqulov onu görəndə tülkü cildinə girib, riyakarlıqla, utanmadan bu ittihamları boynundan atırdı, gah həyasızcasına səsini qaldırır, gah da davaşuluqluq salırdı, sanki bu işlərdən heç xəbəri yoxmuş kimi, özünü günahsız quzu təki generala təqdim etməyə çalışırdı. Başqa vaxtlar isə qışqıra-qışqıra mənim üstümə yeriyib hədələyir, məndən yuxarılara - SSRİ Daxili işlər nazirinin müavini Yeliseyevə və Azərbaycan Respublikası Daxili işlər naziri Aydın Məmmədova şikayət edəcəyini bildirirdi. Bir dəfə Zahid Dünyamalıyev İsaqulova bərk hirslənib ona "Ən böyük günahkarlardan biri sənsən", - deyərək xidməti silahı ilə vurub döymək istədi. Araya girib biz qoymadıq...

Bunlara rəğmən həyasız və hiyləgər A.İsaqulov mənim məsələmi SSRİ Daxili işlər Nazirinin müavini Yeliseyev səviyyəsinə qədər qaldırmışdı. O zaman məni Aydın Məmmədov və Nazirliyin cinayət axtarışı rəisinin müavini Xəlil Quliyev müdafiə etdilər. Əsas səbəb isə Xankəndidə əməliyyat şəraitini öyrənməyim və operativ olaraq Bakıya çatdırmağım, İsaqulovun ikiüzlülüyü barədə rəhbərliyə göndərdiyim yazılı məlumatlar idi...



**Sadir Məmmədov,**
keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) Daxili İşlər İdarəsinin rəis müavini

***- Sonradan Qarabağdakı separatçı rejimin rəhbəri və Ermənistanın prezidenti olan Xocalı canisi Robert Köçəryan 1988-ci ildə - separatçı erməni hərəkatının başlandığı vaxtlarda Xankəndində ipək kombinatının partiya komitəsinin rəhbəri idi. Yəqin ki, onunla da rastlaşmalı olurdunuz?***

- Bəli. O günlər mən Xankəndidə azərbaycanlıların işdən qovulması, azərbaycanlı şagirdlərin məktəb və bağçalara gedə bilməməsi ilə bağlı faktları yazılı surətdə Bakıya göndərirdim. Müəyyən olundu ki, azərbaycanlıları işdən qovduranlar arasında Qarabağ İpək Kombinatının partkomu olan bu Köçəryan da var. Onun kabinetinə girib danladım ki, sən kimsən, hansı əsasla azərbaycanlıları işdən qovdurursan? Köçəryan da riyakarcasına cavab verdi ki, mən qovmuram, özləri öz ərizələri ilə çıxırlar, nə deyirik, qayıtsınlar da işə...

Təəssüf ki, İsaqulov kimi Köçəryan kimilərin də vaxtında cəzalandırılmasına yuxarılar, Moskva imkan vermirdi...

Cəzasızlıqdan yararlanan erməni ekstremistləri isə getdikcə azğınlaşırdılar. 22 fevral 1988-ci ildə ermənilər Şuşadan azərbaycanlıların gəldiyi "QAZ-21" - "Volqa" markalı avtomaşını daş-qalaq etdilər. Maşının şüşələri çilik-çilik olmuş, sərnişinləri isə al-qana qərq etmişdilər...

***- Yəqin ki, fevralın 22-də baş vermiş və ilk şəhidlərimizin olduğu Ağdamdan soydaşlarımızın Əsgəran və Xankəndinə doğru yürüşünün də şahidi oldunuz?***

- Bəli, məhz ermənilərin Ermənistanda və Qarabağda azərbaycanlılara hücumları haqqında yayılan xəbərlərdən sonra Ağdam camaatı, digər ətraf rayonlardan da toplanmış soydaşlarımız da belə hadisələrə cavab olaraq daş-kəsəklə, yaba-zopa ilə təpədəndırnağa silahlanmış ermənilərin toplaşdığı Əsgərana doğru yürüməyə qərar verib. 1988-ci il fevralın 22-i səhər saat 10 radələrində qərargaha məlumat verildi ki, Ağdamdan Əsgəran istiqamətində insan axını gəlir. Bu haqda nazirimiz Aydın Məmmədova məruzə etdim. Ondan əmr aldım ki, gedib toqquşmanın qarşısını alaq. Beyləqan rayon DİŞ-in rəisi Şamil Qurbanovla və Bərdə Rayon Daxili İşlər şöbəsinin rəisi Mirzə Əbdürəhmanovla Əsgərana getdik. Gördük ki, Qarqar çayı və şose yolu ilə insan axını Əsgərana doğru gəlir. Əhalini sakitləşdirib, saxlamaq mümkün deyildi. 13-15 yaşlı uşaq lar da qorxmadan irəli gedirdilər. Ermənilər də hazır vəziyyətdə idilər, axını qarşılamaq üçün irəliləyirdilər...

Bakıdan gələn Azərbaycanın ovaxtkı rəhbəri, Mərkəzi Komitənin 1-ci katibi Kamran Bağırov da Əsgəranla Xocalı arasında qalmışdı. Vəziyyət çox idarəolunmaz hala gəlmişdi. Bu vaxt Mərkəzi Komitənin katibi Həsən Həsənov bir yük maşınının kuzovuna çıxıb camaata müraciət etdi, ermənilərin silahlı olduğunu, ölüm-itim olacağını bildirdi. O zaman camaat arasında böyük nüfuzu olan Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasova, Seyid Miriş də ora gəldilər. Xuraman Abbasova yaylığını açaraq yerə atdı və emosiyalarını cilovlaya bilməyən insanların geriyə qayıtmasını xahiş etdi...

Sonra məlum oldu ki, həmin yürüş zamanı ermənilər Əli Hacıyev və Bəxtiyar Quliyev adlı iki gəncimizi güllə ilə qətlə yetiriblər. Ə.Hacıyev və B.Quliyev, dediyiniz kimi, Qarabağ müharibəsinin ilk şəhidləri oldular...

***- Bəs Azərbaycan milisi ilk şəhidlərimizin qatillərinin axtarışı istiqamətində nəsə bir iş görə bildimi?***

- O zaman Moskvaya tabe olduğumuz bir vaxtda bunu etmək çox çətin idi. Cinayətin, cəzasızlığın, terrorun baş alıb getdiyi bir vaxtda Qarabağda təhqiqat işlərini aparmaq nə qədər çətin, müşkül məsələ olsa da, biz Əli Hacıyevin qətli ilə bağlı cinayət işinin açılmasına nail olduq.

SSRİ Baş Prokurorluğunun mühüm işlər üzrə baş müstəntiqi Karl Maydanyukla yaxın tanışlığım köməyimizə gəldi. Nəhayət, Əli Hacıyevin qatili erməni Cəbi 1988-ci il aprelin 29-da həbs edildi. Əsgəran rayon milis şöbəsinin rəisi V.Avaginyanın yanına gedib Cəbini təhvil aldıq. Cəbini götürən kimi avtomobilə minib sürətlə Əsgərandan çıxdıq. Ermənilər dalımızca düşdülər, ancaq çata bilmədilər.

Cəbini Ağdamda ruslara təhvil verdik. Təəssüf ki, iki aydan sonra onu həbsdən azad etdilər. Səbəbini bununla izah etdilər ki, guya Cəbi iki azərbaycanlını öldürməsəydi, kütləvi qırğının qarşısını almaq və yaxınlıqdakı uşaq bağçasının təhlükəsizliyini təmin etmək mümkünsüz olardı... Məntiqsizliyin "məntiqinə" baxın!

Cinayətkar silahlı ünsürlərin, «boyeviklərin» cəzalandırılmaması onları bir az da ruhlandırır, daha da həyasızlaşdırırdı. Onlar azərbaycanlı əhaliyə, daxili qoşunların hərbi qulluqçularına qarşı təcavüzkarlıq əməllərini genişləndirir və yaxud öz cinayətlərinin şahidlərini aradan götürürdülər. Qarabağda yalnız azərbaycanlılar deyil, rus

> *Zahid Dünyamalıyev İsaqulova bərk hirslənib ona "Ən böyük günahkarlardan biri sənsən", - deyərək xidməti silahı ilə vurub döymək istədi*

hərbçilər də erməni qəddarlığının, erməni terrorunun qurbanı olurdu. Onların qanlı "işinə" mane olan hər kəs aradan götürülürdü. Gözünü qan örtmüş, azğınlaşmış erməni millətçiliyi üçün müqəddəs heç nə yox idi. Çirkli siyasi oyunların, qanlı separatçılığın hər kəs qurbanı ola bilərdi...

Şükür Allaha ki, bu günlər Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızın xeyli hissəsini, o cümlədən Qarabağın ürəyi olan Şuşanı işğaldan azad edib. İnAllah, dövlətimiz tezliklə Xankəndi, Əsgəran, Xocalı və digər ərazilərimizdəki separatçı erməni tör-töküntülərinin də dərsini verər və o yurdlarımızda da üçrəngli bayrağımız qürurla dalğalanar...

***Sultan Laçın***

## İqtisadiyyat

# "Bir sıra dövlət şirkətinin fəaliyyəti günün tələblərinə uyğun deyil"



**Mikayıl Cabbarov,**
İqtisadiyyat naziri

***Bir sıra dövlət şirkətinin bugünkü fəaliyyəti günün tələblərinə uyğun deyil, bir sıra hallarda isə idarəetmənin effektivliyi aşağıdır. Bunu "Postpandemiya dövründə vergi sistemi" mövzusuna həsr olunan konfransda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Nazirin sözlərinə görə, sözügedən şirkətlərin xərclərinin, tender prosedurlarının şəffaflığı tam təmin edilməyib. M. Cabbarov qeyd edib ki, büdcə gəlirlərinin formalaşmasında mühüm rol oynamalı olduğu halda, bir çox hallarda dövlət şirkətləri zərər ilə çalışırlar: "Bu sahədə artıq ciddi islahatlar həyata keçirilir. Dövlət şirkətlərinin effektivliyinin artırılması və onların ciddi bazar dəyərinə çatdırılmasına nail olunmalıdır.***

Dövlət şirkətlərinin borclanmlarına nəzarətin gücləndirilməsi, dövlət büdcəsinə divident ödənişlərinin artırılması hədəf kimi qarşımızda durur və 2020-ci ildə yaradılmış Azərbaycan İnvestisiya Holdinqi hazırda bu istiqamətdə çalışır".

Ötən il Azərbaycanda sahibkarlara 358 mln. manatdan çox birbaşa maliyyə dəstəyi göstərilib, 115 mln. manat həcmində vergi güzəştləri paketi təqdim edilib, 170 mln. manata yaxın dövlət zəmanəti ayrılıb. Mikayıl Cabbarov deyib. Onun sözlərinə görə, il ərzində toplam kredit portfeli 250 mln. manatdan çox olan mövcud kreditlər üzrə subsidiyalar verilib və bir sıra digər dəstək tədbirləri həyata keçirilib: "Bu tədbirlər nəticəsində pandemiyanın ilkin təsirləri qismən neytrallaşdı. Pandemiyanın təsirlərinin aradan qaldırılması, iqtisadi fəallığın bərpa edilməsi, kiçik və orta biznesin yenidən aktiv fəaliyyətə qaytarılması hazırda qarşıda duran əsas vəzifələrdəndir".

Nazir əlavə edib ki, bu məqsədlərin yerinə yetirilməsi ölkədə olan epidemioloji vəziyyətlə sıx bağlıdır. Məhz bu nöqteyi-nəzərdən ölkədə artıq həyata keçirilən vaksinasiya proqramının da iqtisadi fəallığın bərpa edilməsi üçün əsas şərtlərdən biridir.

Azərbaycanda uzunmüddətli dövrdə dayanıqlı iqtisadi artıma və rifaha nail olmaq üçün, ilk növbədə, iqtisadi fəaliyyətin bərpası hədəflənir. Mikayıl Cabbarov deyib. Onun sözlərinə görə, əvvəlcə postpandemiya dövründə sahibkarlıq subyektlərinin qısa müddətdə iqtisadi aktivliyini, gəlirlərini və bazarda istehlakı əvvəlki səviyyəyə qayıtması üçün tədbirlər görüləcək.

Nəzərdə tutulmuş planın ikinci hissəsinə toxunan M. Cabbarov, qeyri-neft sektoruna investisiya qoyuluşların canlandırılmasına üçün bu sahədə kiçik və orta sahibkarların maliyyə resurslarına əlçatanlığının yaxşılaşdırılacağını vurğulayıb.

Azərbaycanda pospandemiya dövründə həm vergi qanunvericiliyin, inzibatçılığın təkmilləşdirilməsi, eləcədə informasiya texnologiyalarının vergi nəzarət mexanizmlərində daha geniş istifadəsi davam etdiriləcək. Mikayıl Cabbarov deyib. Onun sözlərinə görə, ötən il Dövlət Vergi Xidməti tərəfindən uğurla həyata keçirilən "ƏDVgerial" mexanizmi cəmiyyət tərəfindən müsbət qiymətləndirilib:

"Bu layihə vergi inzibatçısı və ödəyicisi münasibətində şəffaflığın artırılması ilə yanaşı, vətəndaşların və istehlakçıların iqtisadi və biznes subyektlərə olan inamın artırılmasına gətirib çıxarır. Hesab edirik ki, bu, biznes və vətəndaş münasibətlərində keyfiyyətcə yeni mərhələlər açıb. Eyni zamanda, bu, ictimai nəzarətin gücləndirilməsi və genişləndirilməsinə də xidmət edən istiqamətdir".

## Proqnoz

**2021-ci ildə OPEC+ sazişi çərçivəsində neft hasilatının könüllü tənzimlənməsinə uyğun olaraq Azərbaycanda maye karbohidrogenlərin hasilatı 0,73 milyon barel/sutka səviyyəsində qalacaq. Bu barədə OPEC-in fevral hesabatında məlumat verilir.**

Hesabatda qeyd olunur ki, ötən ilin dekabrında ölkədə sutkada 0,72 milyon barel maye karbohidrogen, o cümlədən 0,59 milyon barel xam neft və 0,13 milyon barel qaz-kondensat hasil olunub. Təşkilatın məlumatlarına əsasən, 2020-ci ildə Azərbaycanda maye karbohidrogen hasilatı 2019-cu illə müqayisədə 0,06 milyon barel/sutka azalaraq 0,73 milyon barel/sutka təşkil edib.

**Müsahib**

***İşğaldan azad olunan ərazilərimizdə yeni quruculuq işlərinin aparılması ilə paralel, vandal ermənilərin uzun illər torpaqlarımızda törətdiyi vəhşiliklərin, soyqırımların dünya ictimaiyyətinə çatdırılması prosesi davam edir. Belə bir ərəfədə Azərbaycan xalqı bir daha üzünü dünya ictimaiyyətinə tutaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törətdilən soyqırımın də haqqını soruşacaq. Bu və digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən millət vəkili Elman Məmmədov bir sıra nüanslara diqqət çəkib.***

# "Xocalı aeroportu Azərbaycanın mülküdür"

***- Elman müəllim, məlumdur ki, 44 günlük Vətən Müharibəsində azad olunan torpaqlarımıza qayıdış planı hazırlanır. Görülən işlər uzun illər öz torpağından qaçqın düşən əhalinin mövcud əhval-ruhiyyəsinə nə dərəcədə adekvatdır?***

- Mövcud vəziyyət, Azərbaycanın, Azərbaycan xalqının müharibədənsonrakı əhval-ruhiyyəsinə adekvatdır. Hesab edirəm ki, xalqın əhval-ruhiyyəsi çox yüksəkdir. Bu gün 28-30 illik qələbə həsrətinin dadını çıxarırıq. Hazırda özümüzü qalib xalq, qalib millət, qalib dövlət kimi hiss edirik. Təbii ki, hər bir məcburi köçkün də öz doğma yurd-yuvasına qayıtmaq arzusu ilə yaşayır, həmin günü, həmin saatı gözləyir ki, gedib o ata-baba yurdunda həmin sönmüş ocaqları yandırsın. Hamı qayıdışı gözləyir və təbii ki, bu istiqamətdə dövlət başçısının rəhbərliyi altında çox gərgin işlər gedir.

### Özbaşınalığa yol verilməməlidir

Azərbaycan daxilində olan rəsmi qurumlar, özəl qurumlar və yaxud iş adamları yox, eyni zamanda, bir neçə xarici dövlətin də iş adamları, şirkətləri qayıdış prosesinin hazırlanmasına cəlb olunublar. Bu proseslər hələ müharibə getdiyi dövrdə başlamışdı. Yəni müəyyən rayonlararası, kəndlərarası yolların çəkilişi, rabitənin təmin olunması, enerji, su təminatının təmin olunması başlanılmışdı ki, ordumuz irəlilədikcə bu işlər görülürdü. İndi bu proses dediyim kimi daha geniş vüsət alıb. Burada ən diqqətçəkən məqam ondan ibarətdir ki, hər şey birbaşa cənab Prezidentin rəhbərliyi və nəzarəti altında, dövlət proqramı qaydasında həyata keçirilir. Bu sahədə heç bir vaxt özfəaliyyətə, özbaşınalığa yol verilməməlidir. Cənab Prezidentimiz tərəfindən birmənalı olaraq qəti şəkildə qarşıya qoyulan məsələlərdən biri budur ki, yaşayış məntəqələrimizi, infrastrukturu elə qurmalı, elə yaratmalıyıq ki, nümunəvi olsun. O yerləri işğaldanəvvəlki vəziyyətdən daha üstün şəkildə bərpa edib əhalimizi ora qaytarmalıyıq.

### Ümidsizliyə əsas yoxdur

***- Qarabağda mövcud vəziyyətlə əlaqədar olaraq, yəni rus sülhməramlılarının regionda olması, ermənilərin hələ də ərazilərə gediş-gəlişi Xocalı camaatında bədbinlik ruhu yaradıb. Xocalılılar narahatdır ki, belə bir şəraitdə o torpaqlara necə qayıda biləcəklər. Məsələyə bu aspektdən yanaşsaq, Xocalı rayonundan olan bir deputat kimi nə deyərdiniz?***

- Azərbaycan ərazisinin 17,6 min kvadrat-kilometri işğal altında idi. Bu gün biz o ərazinin 15 min kvadrat-kilometrini düşməndən tamamilə təmizləmişik. Müəyyən səbəblər üzündən çox az bir hissədə düşmən qüvvələr qalıb. İnşAllah yaxın vaxtlarda ora da düşməndən təmizlənəcəkdir.

Mən xocalılıların, xocavəndlilərin, ağdərəlilərin, xankəndlilərin də o nigarançılığını, narahatlığını bölüşürəm. Biz füzulililər də, qubadlılılar da, zəngilanlılar da, cəbrayıllılar da hamımız bir yerdə yaşayırıq. Tutaq ki, Cəbrayıldan olan vətəndaş deyir ki, mənim kəndim azad olunub, sabah-birigün kəndim azad olunan kimi gedəcəyəm ora. Onda görürsən ki, xocavəndli, xocalılı, yaxud xankəndlili vətəndaşımız bir balaca məyus olur ki, bəs mən nə vaxt qayıdacağam? Hesab edirəm ki, məyusluğa, ümidsizliyə əsas yoxdur. Güclü Azərbaycanımız, güclü Azərbaycanımızın cəsarətli, qətiyyətli, müdrik rəhbəri Azərbaycan xalqının ordusunun dəstəyi ilə bu xırda-para məsələləri də aradan qaldıracaq. İnşAllah hər birimiz doğma yurd-yuvamıza qayıdacağıq. Sadəcə, müəyyən məsələlər var ki, onların həlli bir qədər zaman alacaq.


**Elman Məmmədov,**
Milli Məclisin deputatı

Sülhməramlıların məsələsinə gəldikdə isə səmimi danışmaq istəyirəm. Bu gün sülhməramlıların özlərinə aid olmayan işlərlə məşğul olması, orada cinayətkarların rəhbərləri ilə əməkdaşlıq etmələri, təbii ki, bizi narahat edir. Dəfələrlə bu barədə çıxış edərək fikirlərimi bildirmişəm. Yəqin ki, bu hal da aradan qaldırılacaq.

Qarabağda monitorinq mərkəzinin yaradılması, Türkiyə sülhməramlılarının regiona gəlişi, ən əsası, Azərbaycanın gücü ilə belə neqativ halları aradan qaldıracağıq. Yaxşı bilirlər ki, öhdələrinə düşən işi yerinə yetirməyəndən sonra, Azərbaycan öz ərazisində antiterror əməliyyatı keçirmək səlahiyyətinə malikdir. Lazım gəlsə, o zir-zibili də oradan təmizləyəcəyik. Həmin qüvvələrə gün kimi aydındır Azərbaycanın qətiyyətli mövqeyi.

### Laçın dəhlizində sərhədçilərimiz olmalıdır

***- Elman müəllim, məlumatlardan da görünür ki, Ermənistan rəsmiləri bu gün də həyasızcasına Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazisinə gəlib separatçı rejimlə görüşlər keçirir, hərbi hazırlıqlara başlamaqla bağlı planlar cızırlar. Belə halların qarşısı necə alınmalı və nə kimi tədbirlər görülməlidir?***

- Azərbaycan dövlət sərhədinin hər bir santimetrinə Azərbaycan sərhədçiləri nəzarət etməlidirlər. Mən Laçında 5 kilometrlik ərazini əhatə edən Azərbaycan-Ermənistan sərhədini nəzərdə tuturam. Sülhməramlı sərhədçi deyil, sülhməramlılıq missiyası başqadır. Heç kim o ərazilərdən istədiyi vaxt əllərini, qollarını sallayıb Qarabağa gələ bilməz. Belə hadisələrin qarşısı birmənalı olaraq alınmalıdır. Bunu da Azərbaycan hərbçisi, Azərbaycan sərhədçisi edəcək.

***- Ermənilər Qarabağda olmayan status-kvonunun bərpasına cəhdlər edirlər. Qarabağa səfərlərin separatçı rejimin xəyal etdiyi "xarici işlər nazirliyi"ndən icazə alınması məsələsi irəli sürülür...***

- Minsk Qrupu ölü bir quruma çevrilmişdi, indi yenidən "xoda" düşürlər. Onlar mövcud olduqları və fəaliyyət göstərdikləri bütün müddət ərzində, ancaq bizim ziyanımıza, ermənilərin xeyrinə işləyiblər. Bu gün də onların fəallaşması ermənilərin xeyrinə nəsə etmək istəyindən yaranır. Təmsil olunduqları dövlətlərin mövqeləri bəllidir. Azərbaycan, artıq onların "dabbaqda gönünə bələddir" və həmin qüvvələrə bu meydanı verməyəcəyik.

***- Xocalı aeroportunun indiki ərəfədə hazırlanıb istifadəyə verilməsində maraqlı olan rus sülhməramlıları nəyə nail olmağa çalışırlar?***

- Bu gün, indiki şəraitdə o aeroportun fəaliyyət göstərməsi ermənilərin və onlarla həmrəylik göstərən sülhməramlıların istək-arzusudur. Bir məsələ də var: 2020-ci il sentyabr ayının 27-nə qədər, 28 il ərzində şərtləri erməni tərəfi diqtə edirdi. 44 günlük müharibənin nəticəsinə görə bu gün şərti və tələbi biz qoyuruq.

> *Azərbaycan öz hərbi gücü hesabına ərazisində antiterror əməliyyatı keçirmək səlahiyyətinə malikdir*

Məhv və məğlub olmuş tərəf şərtlə çıxış edə bilməz, onların istək və arzusu birdəfəlik istifadə olunan kağız kimi kənara tullanır. Xocalı Azərbaycandır! Xocalı aeroportu Azərbaycanın mülküdür. Orada nə olacaq, necə olacaq, bu məsələlərin hamısını Azərbaycan dövləti həll edir və edəcək. Xocalıda kənar qüvvələrin istəyi ilə heç bir şey olmayacaq.

### Diaspora Xocalı soyqırımının ildönümünə hazırlaşır

***- Xocalı soyqırımının ildönümü yaxınlaşır. Bu gün Xocalını viran qoyulmuş torpaqlarımızın fonunda tanıtmaq üçün növbəti addımlarımız nə olmalıdır?***

- Əgər biz desək ki, dünya ölkələri, beynəlxalq qurumlar, dünya ölkələrinin parlamentləri Xocalı soyqırımı haqqında məlumatsızdırlar, böyük səhv etmiş olarıq. Onlar məlumatlıdırlar, hər şeyi də bilirlər. Sadəcə olaraq bu məsələyə münasibətdə, yanaşmada ikili standartlardan əl çəkmirlər. Hər bir dövlət, qurum, beynəlxalq təşkilat istənilən məsələyə, o cümlədən Xocalı soyqırımına özünün maraqları çərçivəsində, özlərinə sərf edən bucaq altından baxırlar. Buna baxmayaraq, Ulu Öndərin hakimiyyətə gəldiyi vaxtdan bu günə qədər, indi isə cənab Prezidentimizin rəhbərliyi ilə, hörmətli Mehriban xanımın, Leyla xanımın rəhbərliyi ilə Xocalı soyqırımı ilə bağlı "Xocalıya Ədalət" və başqa kampaniyalar aparmaqla tədbirlər keçirilir.

Bir sıra ölkələrin parlamentləri səviyyəsində Xocalı soyqırımını tanıyanlar da var. ABŞ-ın 10-dan çox ştatı Xocalı soyqırımını tanıyıb və bu proses davam edir. Hər il olduğu kimi, bu il də Xocalı soyqırımı ərəfəsində xarici ölkələrdə çoxsaylı tədbirlər keçiriləcəkdir. İndidən Avropa dövlətində olan diaspora təşkilatlarımız, müxtəlif cəmiyyətlərimiz tərəfindən mənə onlayn tədbirlərdə iştirakla bağlı müraciətlər edilib. Çoxsaylı tədbirlər keçiriləcək. Biz bununla ermənilərin iç üzünü açıb göstərməli, onları ifşa etməli və bununla soyqırımının törədənlərin cinayət məsuliyyətinə cəlb olunmasına nail olmalıyıq.

### Bu o demək deyil ki...

***- Elman müəllim, qeyd etdiyimiz kimi, geriyə qayıdış planı hazırlanır. Hələ ki, evsizlik problemi olan xocalılılar var və geriyə qayıdışın, ən azı, 5 il çəkəcəyini düşünsək, qaçqınların həyat şəraitinin, ev şəraitinin yaxşılaşdırılması üçün hansı addımlar atılır?***

- Bizim qayıdışımızı Azərbaycan dövləti təmin edəcək, 5 il söhbəti yoxdur. Çox yaxın vaxtlarda ciddi proseslərin şahidi olacağıq. Sülhməramlılar özlərini yaxşı aparsalar, Azərbaycan qanunlarına qarşı hörmətsizlik etməsələr, orada 5 il qalacaqlar. Əks-təqdirdə, Azərbaycan onların vaxtından əvvəl əraziləri tərk etmələrini tələb edəcək. Evindən didərgin olan vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, onlara evlərin tikilməsi tədricən olacaq. İndi əvvəlki illərdən fərqli olaraq, əhalimizin çox hissəsinin mənzil, iş təminatı var. Müəyyən hissə var ki, yataqxanalarda, başqa yerlərdə çox ağır vəziyyətdə yaşayırlar, müəyyən ciddi problemlər var. Hər şey dövlətimizin nəzarətindədir. Torpaqlar azad olunubsa, bu o demək deyil ki, dövlət qaçqın və köçkünün üzərindən əlini çəkəcək, xeyr. Hər kəs öz doğma torpağına qayıdana qədər burada harada yaşayıbsa, orada dövlətin qayğısı ilə təmin olunacaq.

*✍ Tahirə Qafarlı*

# Azərbaycan - qlobal enerji platformasının ən etibarlı üzvü

**Bir neçə gün əvvəl sayca 7-ci toplantısı baş tutan Cənub Qaz Dəhlizi Məşvərət Şurası ən nəhəng platformalardan biri kimi ilbəil nüfuzunu daha da möhkəmləndirir.**


**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

Hər il məhz Azərbaycanın moderatorluğu ilə təşkil olunan müzakirələrdə həm layihənin icrası barədə iştirakçı dövlətlər məlumatlandırılır, həm də yeni imkanlar haqda debatlar təşkil olunur. Davamlı olaraq enerji komissarları, ABŞ, Böyük Britaniya kimi nüfuzlu dövlətlərin yüksək ranqlı nümayəndələrinin bu platformada iştirakı ilə səmərəli iqtisadi-siyasi təhlillər aparılır, effektiv nəticələr əldə edilir. Bu dəfəki toplantıda da aktual məsələlərə toxunuldu, əməkdaşlığın növbəti mərhələsi üçün konkret istiqamətlər müəyyənləşdi.

Məlumdur ki, Azərbaycanın iqtisadi-siyasi iradəsi ilə reallaşan ən nəhəng enerji layihələrindən biri - "Cənub Qaz Dəhlizi" həm Azərbaycan, həm bütövlükdə Cənubi Qafqaz regionu, həm də Avropa üçün mühüm əhəmiyyət kəsb edir. Xatırlatmaq yerinə düşər ki, ilk gündən məsələyə qərəzli yanaşanlar, layihənin gələcəyinə skeptik baxanlar var idi. Doğrudur, Cənub Qaz Dəhlizi olduqca mürəkkəb layihədir və bu projenin unikallığı həm də ondan ibarətdir ki, bu xəttin bir hissəsi hündürlüyü 2500 metr olan dağlardan, bir hissəsi isə dəniz dibindən keçir. Bununla belə, külli miqdarda maliyyə vəsaiti tələb etməsinə, mürəkkəb relyef quruluşuna rəğmən bütün işlər plan üzrə həyata keçirildi. Zaman keçdikcə, projenin tərəfdarlarının sayı, bu layihəyə qlobal müstəvidə verilən dəyər daha da artdı. Azərbaycan qısa müddətdə etibarlı tərəfdaş kimi bu nəhəng layihə ətrafında vahid komanda yaratmağa müvəffəq oldu. Bütün iştirakçı dövlətlər zamanla vahid komanda kimi "Cənub Qaz Dəhlizi"nə, konkret olaraq Azərbaycan qazına Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbə kimi dəyər verməyə başladı. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur".



### Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün də etibarlı tranzit ölkə kimi etimad qazanıb

Bu gün "Cənub Qaz Dəhlizi" Avropada təchizat marşrutlarının şaxələndirilməsində əhəmiyyətli rola malikdir. Üstəlik, burada yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən söhbət gedir. Enerji təhlükəsizliyinin təminatı, eyni zamanda şaxələndirmə istehlakçı və istehsalçı ölkələr üçün hər zaman prioritetdir.

Bu projenin icrası Avropanın enerji təhlükəsizliyi baxımından yeni mənbələrin vacibliyini ortaya qoyur. Bu, həm alternativ marşrut üzərindən təbii qazın Avropaya ötürülməsi, həm də uzunmüddətli perspektivə hesablanmış yeni mənbədir. Aydındır ki, Azərbaycanın təsdiqlənmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə bu həcm daha da artıq ola bilər. Eyni zamanda Cənubi Qaz Dəhlizinin inşası ilə Avropa üçün faktiki hazır infrastruktur formalaşır. Xüsusilə TAP-ın istismara verilməsi yeni təchizat layihələrinin həyata keçirilməsinə şərait yaradıb. Təsadüfi deyil ki, İtaliya, Yunanıstan və Bolqarıstanda istehlakçılar bu qış ilk dəfə olaraq Azərbaycanın təbii qazından istifadə edir.

Ümumiyyətlə, Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün də etibarlı tranzit ölkə kimi etimad qazanıb. Nəhəng layihələrin uğurlu icrsı ilə yanaşı, qarşıda daha geniş hədəflər dayanır - Azərbaycanın həm də bərpa edilən enerjiyə dair planları var. Prezident İlham Əliyev də qeyd etdiyi kimi, hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar aparılır. Bu layihələr onsuz da investorlar üçün hər zaman cəlbedici olan Azərbaycana marağı daha da artıracaq. Eyni zamanda Azərbaycan işğaldan azad etdiyi ərazilərin iqtisadi və coğrafi imkanlarından səmərəli istifadə etmək niyyətindədir. Belə ki, azad olunmuş ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün bütün imkanlar dəyərləndiriləcək. Avropanın "Yaşıl razılaşma" əsasında 2050-ci ilə qədər iqlim neytrallığına, de-karbonlaşmış enerji sisteminə doğru hərəkət etməsini nəzərə alsaq, Azərbaycanın yaşıl enerji konsepsiyası olduqca əhəmiyyətlidir. Əminliklə söyləmək olar ki, Azərbaycan enerji təhlükəsizliyinin əsas təminatçısı kimi həm də "yaşıl enerji" konsepsiyasını reallaşdırmaqla bu sahədə öz standartını yaradacaq.

# Qiymət artımına qarşı tədbir görülməlidir

**"Azərbaycan koronavirusla mübarizədə yeni mərhələyə qədəm qoyub". Bunu Milli Məclisin iclasında deputat Əli Məsimli deyib.**

Deputat bildirib ki, bunun üçün Milli Məclisdə ölkədə koronavirusla bağlı vəziyyətə dair dinləmə keçirilməsi çox yerindədir: "Bu böyük tədbirin praktiki əhəmiyyətini artırmaq üçün qaldırılan məsələlər həllini tapmalıdır. Pulsuz testlərin istifadə dairəsinin genişləndirilməsi, pullu testlərin qiymətlərini 2-3 dəfə endirilməsi həll olunmalıdır. İkinci olaraq, pensiyaların artması müsbət hadisədir, ancaq bununla paralel qiymətlər də artır. Bunun qarşısı alınmalıdır. Dövlət strukturu olan "Azərsu" da qiymətləri iki dəfə qaldırıb. Bu, hələ son deyil. Digər xərclər də qalxacaq. Bu, aşağı təbəqə insanların həyatını daha da çətinləşdirəcək.

Bu təşkilatların təsərrüfatsızlığının əvəzini Azərbaycan xalqı ödəməməlidir. Bunlarla bağlı tədbirlər görülməlidir".


**Əli Məsimli,**
Milli Məclisin deputatı

# "Operativ Qərargahın bəzi qərarlarına düzəliş edilməlidir"

**"Biz bölgələrimizin adının tanınması ilə bağlı fərqli strategiyalar üzərində işləməliyik". Bunu deputat Fazil Mustafa deyib. Deputat bildirib ki, Nizami Gəncəvi kifayət qədər dünyada tanınır:**

"Nizami adına Gəncədə kifayət qədər yer adları var. Burada tanınmayanların dünyada tanınmasına şərait yaratmalıyıq. Məsələn, Nəsib bəy Yusifbəyli". Deputat bildirib ki, Operativ Qərargahın bəzi qərarlarına düzəliş edilməlidir: "Sahibkara istənilən səviyyədə yardım göstərmək mümkün deyil. Ölkədə tikinti məhsullarının qiyməti son 1 ildə 30-40% qalxıb.

İdman yerlərini bağlayıblar. Burada hansı yoluxma təhlükəsi var?! Yüzlərlə, minlərlə insanların vəziyyəti ağırdır. Yaxud paltar, ayaqqabı satılan yerləri bağlayırlar-açırlar. Hansı ki, ora gün ərzində 10-20 nəfər girə ya girməyə. Bir çox sahələri açmaq lazımdır. İnsanları bu vəziyyətdə qoymaq olmaz. Həmin yerlərdə çalışan insanlar işləmir".

Araşdırma

***Azərbaycan zərgərlik sənəti qədim tarixə və zəngin bədii-texniki ənənələrə malikdir. Elə bu səbəbdən, Azərbaycan zərgərlərinin yaratdıqları sənət nümunələri haqlı olaraq geniş şöhrət qazanıb. Onların yüksək bədii məziyyətlərinə görə dünyanın müxtəlif ölkələrinə yayılması, məşhur muzeyləri və şəxsi kolleksiyaları bəzəməsi də elə bunun təsdiqidir. Parisin Luvr, Sankt-Peterburqun Dövlət Ermitajı muzeylərində və Moskvanın Silah Palatasında, Türkiyənin Topqapı saray-muzeyində, Bakıdakı Azərbaycan tarixi, Azərbaycan Dövlət İncəsənət muzeylərində, Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində Azərbaycan zərgərlərinin nadir bəzək örnəkləri saxlanılır. Bu gün isə Azəraycanın zərgərlik sənətinin çox da uzaq olmayan keçmişinə, Sovet İttifaqı illərinə nəzər salacağıq.***

# Zər qədrini zərgər bilər

## İllik 4 ton həcmində qızıl məmulatlar

**Bakıda ilk zərgərlik zavodu 1936-cı ildə inşa edilib. Həmin dövrdə zavod İçərişəhərdə yerləşirdi. Həmin dövrdə**



**burada cəmi 15-16 nəfər işəlyirdi. Keçən əsrin 50-ci illərindən sonra isə Azərbaycanda, xüsusilə də Bakıda zərgərlik məmulatlarının hazırlanmasına diqqət xeyli artdı.**

Qeyd edək ki, SSRİ dövründə Azərbaycan zərgərlik və zinət əşyalarının hazırlanmasına görə keçmiş ittifaq daxilində əsas mərkəzlərdən biri idi. Həmin dövrdə qiymətli daşlar və metallardan məhsullar əsasən iki mərkəzdə Bakı Zərgərlik Zavodu və İstehlak Xidmətləri Nazirliyinin tabeliyindəki müəssisədə istehsal olunurdu.

Bakı Zərgərlik Zavodu, demək olar, istehsal edilən məhsulların 90 faizini hazırlayırdı. Bu müəssisə 1973-cü ildə inşa edilib. İttifaq əhəmiyyətli istehsalat sahəsi sayıldığı üçün birbaşa olaraq SSRİ-nin müvafiq nazirliyinə tabe idi. Çox qısa zamanda 2 000 işçi qüvvəsinə malik zavoda həmin dövrün bütün tanınmış zərgərləri cəlb edilmişdi. Beş il ərzində isə Bakı Zərgərlik Zavodu SSRİ-də bu sahə üzrə üç əsas müəssisədən birinə çevrildi. Ümumi təsəvvür yaratmaq üçün qeyd edək ki, həmin dövrdə SSRİ-də ümumilikdə 30 zərgərlik zavodu fəaliyyət göstərirdi. İl ərzində zavod 4 ton qızıl 30 min karat həcmində xammalla təmin edilirdi. Bakı Zərgərlik Zavodunun məhsulları SSRİ-də özünün keyfiyyət və gözəlliyinə görə ikinci yerdə dayanırdı.

## Məşhur simalara hədiyyələr

**Məhz bu amillər SSRİ-nin dövlət xadimlərinə, həmçinin tanınmış mədəniyyət və incəsənət adamlarına bağışlanan qiymətli qızıl zinət əşyalarının Bakı Zərgərlik Zavodundan siariş edilməsini şərtləndirirdi.**

Məsələn, 1970-ci illərdə tanınmış sovet müğənnisi Lyudmila Zıkinaya ən bahalı hədiyyəni o zaman Mərkəzi Komitə-





nin birinci katibi olan ümummilli lider Heydər Əliyev bağışlayıb. Bu, ağ və sarı qızıl ilə işlənmiş 127 ədəd brilyantdan ibarət boyunbağı olub. Qiyməti 400 min dollar dəyərində idi. Bu barədə "Komsomolskaya pravda" qəzeti müğənninin zinət əşyaları kolleksiyasının siyahısını dərc edərkən bildirib.

1966-cı ildən 1982-ci ilədək SSRİ-nin Baş Katibi Leonid Brejnevə də Azərbaycanda qızıl və brilyantlarla bəzədilmiş xəncər hədiyyə edilib.

Bu istiqamətdə araşdırmalarımıza həmin dövrdə Bakı Zərgərlik Zavodunda zərgər işləyən Yaşar usta yardımçı olur: "Zavodumuzda İqor adında usta var idi. Onun işi daha çox zərgərlik məmulatlarına gözəllik vermək idi. Brejnevə hədiyyə xəncərini o düzəltmişdi. Almazla bəzədilmişdi. Həmin dövrdə hazırlanan hədiyyələrin əksər hissəsi məhz bizim zavodda hazırlanırdı".

## Köhnə yeni nəsil zərgərlər

**Yaşar usta ilə söhbətimizə davam edirik. Onun sözlərinə görə, sovet dövrünün zərgərləri ilə indiki ustalar arasında böyük fərq var:** "Əvvəl biz hamımız zavodda işləyirdik. Hazırladığımız məhsullar "OTK"da (qızıl-zinət əşyalarının yoxlanılması mərkəzi) yoxlanılırdı. Təsəvvür edin, 200 iş işləyirdik. Onların hamısı bir-bir yoxlanılırdı. Məhsul standartlara cavab vermədikdə geri qaytarılırdı. Onun üzərində yenidən işləyirdik. Standartlara cavab verən məhsullar isə Əyar Palatasına göndərilirdi".



Usta təəssüf hissi ilə bildirir ki, indi bu proseslərin heç biri həyata keçirilmir. Bir müddət əvvəl Əyar Palatası da fəaliyyətni dayandırıb. İndi ölkəmizə hazır məhsul gəlir. Gələn məhsulun əyarını da gətirilən ölkədə vururlar: "Univermaqlarda satılan məhsulların 90 faizi xaricdən gətirilən hazır məhsullardır. Azərbaycana qızıl məhsulları daha çox Dubay, İtaliya, Honkonq, Türkiyə və Rusiyadan gəlir".

Yeri gəlmişkən, Bakıda Əyar Palatası hələ Çar Rusiyası zamanında XIX əsrin 80-90-cı illərindən fəaliyyət göstərməyə başlayıb. Azərbaycan zərgərlərinin məhsullarının 1900-cü ildə Paris sərgisində iştirakı üçün mütləq şəkildə Bakıda fəaliyyət göstərən Əyar Palatasından rəy almasının mütləq olduğuna dair faktlar da var. Sovetlər dönəmində fəaliyyət göstərən Əyar Palatası isə köhnə çay fabriki və aviakassa olan ərazidə yerləşirdi.

Qeyd edək ki, SSRİ dağıldıqdan sonra Bakı Zərgərlik Zavodunun fəaliyyətinin dayandırılması ölkəmizdə bu sahənin inkişafına ciddi zərbə vurdu. Yaşar ustanın sözlərinə görə, 1985-ci ilə qədər işlər qaydasında idi:

"Sonradan Mixail Qorbaçov SSRİ-nin birinci katibi seçildi. 1990-cı illərdə isə çevrilişlər oldu ölkəmizdə. Bütün bu proseslərin fonunda zavodumuz da yavaş-yavaş dağıldı. Ustalarımız da ora-bura çıxıb getdilər".

## Hər ölkə üçün xüsusi kataloq

**Qeyd edək ki, SSRİ məkanında zərgərlik məhsullarının hansı ölkədə istehsal olunduğuna dair xüsusi kataloqlar hazırlanmışdı. Həmin kataloqlarda o ölkədə fəaliyyət göstərən zərgərlik zavodlarının hazırladıqları bütün məhsullar öz əksini tapırdı. Azərbaycan üçün də bu qayda keçərli idi.**

Yaşar ustanın dediklərindən: "Zavodumuzda kataloqumuza uyğun hazırlanan məhsullar 16 sovet respublikasına satış üçün göndərilirdi. Daha çox, buta, gül formasında üzüklər, dəstlər hazırlayırdıq. Kulonlar düzəldirdik".



Usta bildirir ki, bu gün də sovet qızıllarına çox böyük tələbat var. İndi çox az tapılır həmin dövrün məhsulları. Sovet qızıllarının əyarları 585,750, 950 olurdu. Bu əyarlar tam dəqiq idi, çünki qatı yoxlamadan keçirdi. Bu səbəbdən təmiz məhsullar sayılır: "Ölkəmizə gətirilən qızılların əyarları da hazırda daha çox 585 və 750-dir. Birincilər Türkiyə, ikincilər isə Dubay məhsulları olur".

## Köhnə zərgərlər çox az qalıb

**Azərbaycanda hazırda özəl kolleksiyalara tələbata gəldikdə isə Yaşar usta bildirir ki, indi həmin məhsulları yalnız onların dəyərlərini anlayan köhnə insanlar alır: "İndi daha çox müasir dizaynda olan məhsullar alınır. Gəlinlərimiz, qızlarımız köhnə stildə olan məhsulları taxmaq istəmirlər".**



Onun sözlərinə görə, Azərbaycan zərgərliyinin ənənələrini yaşada biləcək sovet dövrünün məşhur zərgərlərinin çoxu artıq qalmayıb. Yaşayanlar da qocaldıqları üçün bu işi buraxıblar.

Zərgərlik həm də bir sənətdir. Sənət dedikdə ağla ilk gələn usta və şagirdləridir. Gənclərimizin zərgərlik sənətinə marağı, ustaların öyrətmək üçün şagirdgötürmə ənənələri barədə də Yaşar usta ilə danışdıq. Onun sözlərinə görə, indi gənclərin bir çoxu sexlərdə bu sənətin sirlərini öyrənir. İstəyən adam gəlib ustanın haqqını verməklə işi öyrənə bilir. Bəziləri üç-dörd aya öyrənir: "Götürüm qabiliyyətindən çox şey asılıdır. Əvvəllər işlərin çoxu əl işləri idi. İndi əl işi hazırlayanlar demək olar yoxdur. Kompüterdə müştərinin istəyinə uyğun dizayn verilir və məhsul hazırlanır. Məsələn, müştəri gəlib at formasında kulon istəyir. Şəkli kompüterdə tapılıb düyməni basandan sonra o forma alınır. Usta sadəcə hazır məhsulun müəyyən yerlərini təmizləyir".

## Sovet dövründə zərgərlərə etimad niyə yüksək idi...

**İnsanların zərgərlərə etimad məsələsinə gəldikdə isə Yaşar usta vurğulayır ki, bu amil daha çox bazarlarda olan məhsullarla bağlıdır.**

Belə ki, ölkəmizə daxil olan məhsulların brilyantları Hindistandan və başqa yerlərdən gətirilsə də, onlar haqqında doğru-düzgün təsəvvür yoxdur. Sovet dövründə isə zümrüdlər Uraldan, Yakutiyadan isə brilyantlar gətirilirdi. Ustalar da işlədikləri məhsul haqqında tam dolğun təsəvvürə malik idilər. İndi isə bu şeylər yoxdur.

İnsanlar arasında zərgərlərin bir-birlərinə dəstək durması, çatışmazlıqlarını örtbasdır etməyə çalışması ilə bağlı iddialara gəldikdə isə Yaşar usta yenə də bu məsələnin ölkəmizə gətirilən hazır məhsullara bağlı olduğunu deyir. Onun sözlərinə görə, Dubaydan Azərbaycana satmaq üçün qızıl gətirən tacir orada məhsulu yoxlamır. Dubayda da bu qızılları sexlər hazırlayır. Alıb gətirəndə isə onun defektləri üzə çıxır. Yoxlayanda əyar 750 yox, 700, 650 olur.

## Sovetdən qalma "beşlik", "onluq" ənənəsi...

**Keçmiş dövrün ənənələri arasında insanların daha çox "beşlik", "onluq" kimi tanınan qızıl məmulatlarına üstünlük**



**verdiklərini də söyləyə bilərik. Yaşar usta deyir ki, satışda indi də bu məhsullar var:** "Onların əyarları 900-dür. Qiymətləri isə "beşlik" 500, "onluq" 1000 manatdır. Dəyəri də getdikcə artır. Bəzən saxtalarını hazırlayıb satışa çıxarmaq istəyənlər olsa da, zərgərlər baxan kimi saxta olanları tanıyırlar". Bu gün Azərbaycanın milli zərgərlik ənənələrini yaşatmağa, tanıtmağa çox böyük ehtiyac var. Onları yaşadaraq gələcək nəsillərə miras qoya bilən ustaların sayı isə zaman keçdikcə azalır. Fikrimizcə, düşünməyə dəyər, çünki zər qədrini zərgər bilər.

*Azad Əliyev*



# DÜNYANIN ƏN MƏŞHUR zərgərlik brendləri

***Zinət əşyaları hər bir insanın həyatının ayrılmaz elementidir. Lakin qiymətli zərgərlik məmulatları ilə bəzənmək heç də hər kəsə qismət olmur. Bu dəfə sizlərə dünyanın 10 məşhur zərgərlik brendləri haqqında məlumat verəcəyik:***

## Harry Winston



Bu brendin əsasını 1890-cı ildə hazırkı sahibi Harri Uinstonun atası qoyub. Artıq keçən əsrin ortalarından onun zinət əşyaları bir çox kino ulduzlarının boğaz və əllərini bəzəyirdi. Bu günə qədər heç bir qırmızı xalı Harry Winstonun eksklzivləri olmadan reallaşmır. İstənilən hərracda bu brendin məhsulları ən azı 100 min dollarlarla satılır. Misal olaraq 2013-cü ildə Christie's sərgisində 9 karatlıq rubin işləmə 3,9 milyon dollara satılmaqla dünyanın ən bahalı 10 rubinindən biri kimi tarixə düşüb. Zərgərlik məhsullarından başqa brend elit qol saatlarını da istehsal edir. Buraya brilyantlarla bəzədilən Cherry Blossom və ya Midnight Diamond Stalactites saatlarını misal göstərə bilərik.

## Van Cleef & Arpels



Dünyanın məşhur zərgərlik brendləri arasında Van Cleef & Arpels özünəməxsusluğu ilə seçilir. Brendin əsası 1896-cı ildə qoyulub. Brendin dizaynerlərinin fantaziyaları çox seçilir. Unikal kolleksiyların əsas ideya mənbəyi təbiət sayılır - misal olaraq dəniz və ya çiçəklər aləmi... Əlbəttə ki, Van Cleef & Arpels zərgərləri tərəfindən yaradılan məşhur qiymətli balerinalardan bəhs etməmək olmaz. Peau d'Ane kolleksiyasında Charles Perotun "Eşşək Dərisi" nağılından ilham alaraq, hazırlanan kolleksiya xüsusilə gözəldir.

## Buccellati



Bu brendin əsası Mario Buççellati tərəfindən Milanda 1919-cu ildə qoyulub. İndi onun işlərini oğlu Canmaria Buççellati davam etirir. Buccellati məhsulları dünyada özünün unikallığı ilə seçilir. Onun məhsulları sırasında tək üzük, bilərzik, boyunbağı yox, həm də hansısa bir mövzunu tam olaraq əhatə edən kolleksiyalara da rast gəlmək mümkündür. Zərgərlik məmulatları tamamilə əl işidir. Zərgərlərin ən sevimli materialları isə qızıl və platindir. Onlar sapfir, yaşıl zümrüd və brilyantlarla bəzədilir. Bu gün Buccellati hətta dəyəri 200 min dollar olan smartfonlar üçün üzlüklər də hazırlayır.

## Graff



Bu brend 1960-cı ildə yaradılmasına baxmayaraq dünya səviyyəsində çox böyük uğurlara imza atıb. Onun sahibi Lourens Qraffın almaz işi sayəsində dünyanın 4-cü varlı adamına çevrilməsi faktını xatırlatmaq kifayətdir. Brendin şüarı "lüks, müstəsnalıq və zərafət"dir. Qraffın sevimli daşı böyük, mükəmməl kəsilmiş almazdır. Bu səbəbdən onun usta yerinin divarları arasında dünyanın ən böyük bahalı və keyfiyyətli brilyantları doğulub. Ən böyük zümrüd formasında kəsilmiş 302 karatlıq Lesedi La Rona adı verilmiş brilyant 51 milyon dollar dəyərindədir. Onun bütün məmulatları hamısı əl işləridir.

## Piaget



Corc Eduar Piaget şirkətini 1874-cü ildə İsveçrənin Yura kantonunda açıb. Ən yüksək keyfiyyətli saatların yaradılmasında ixtisaslaşan Piaget markası qısa müddətdə bütün Avropada tanınıb. Vaxt keçdikcə, ailə şirkəti Köhnə Dünyanın cazibəsindən ilhamlanaraq zərgərlik məmulatları çeşidlərini genişləndirib. Təbii və bitki motivlərindən zərgərlik markasında tez-tez istifadə olunur. Xüsusilə də gül bir çox məşhur Piaget məhsulunun mərkəzi elementidir. İsveçrə şirkətinin ən çox marağa səbəb olan kolleksiyarı arasında Sunny Side of Life (Jessica Chastain üzü) və şərq motivləri ilə dolu olan Secrets & Lights - Mifik Səyahət xüsusilə seçilir. Piaget həm də dünya məşhurlarının çox sevdiyi bir brenddir.

## Tiffany & Co.



Tiffany - brendini demək olar hər kəs tanıyır. Onun tarixi 1837-ci ildən başlayır. Həin vaxt dünya çox sevilən Tiffany çiçəkləri ilə tanış oldu. Bütün zərgərlik məhsulları qeyri-adi firuzə və açıq mavi rəngli bir hədiyyə qutusuna qoyuldu. Şirkət ənənələrini dəyişdirmir və bu markanı inanılmaz dərəcədə tanınan edir. Tiffany zinət əşyaları platin, qızıl və gümüşü qiymətli daşlardır - hər kolleksiyada qüsursuz tanınan üslubu və lakonizmi birləşdirir.Tiffany zinət əşyaları ilin əsas hadisələrinin daimi iştirakçısıdır: Oscar, Golden Globes, Met Gala.

## Bvlgari



Bvlgari markası 1884-cü ildə qədim bir Yunan ailəsindən olan zərgər Sotirio Bulgari tərəfindən yaradılmışdır. Ənənəvi Latın əlifbasında U əvəzinə V istifadə edildiyi üçün şirkətin adı BVLGARI olaraq yazılmışdır. Ötən əsrin 50-ci illəri Bvlgarini inanılmaz dərəcədə populyar etdi. Gözlənilməz kombinasiyalardan istifadə edən dizayner zərgərlik materiallarında mavi sapfir və brilyant, yaşıl zümrüd və çəhrayı spineli uzlaşdırmaqla markanı inanılmaz dərəcədə tanıtdırdı. Zərgərlik şirkətinin metallar arasında favoritləri həmişə platin və sarı qızıl olub. Serpenti qol saatları və ilan şəklində zərgərlik məmulatları xüsusi populyarlıq qazandı. Onlardan biri 2015-ci ildə bir milyon dollara satıldı.

## Cartier



Marka 1847-ci ildə Fransada ortaya çıxıb. Hələ o zaman Cartier zinət əşyaları Napoleonun bacısını çox heyrətləndirmişdi. 1902-ci ildə markanın zərgərlərinə Kral VII Edvardın taxta oturması münasibəti ilə bir tac hazırlamaq tapşırıldı. Bir müddət sonra isə Cartier kral ailəsi üçün şəxsi zərgərlik tədarükçüsünə çevrildi. Dəbli Fransız markasının ən məşhur və populyar zərgərlik məhsullarından biri, ilk dəfə keçən əsrin 60-cı illərində buraxılan yuvarlaq LOVE bilərzikdir. Bu zinət əşyası tək adi varlı ictimaiyyətin deyil, Jennifer Aniston və Angelina Jolie kimi dünya məşhurlarının da sevimlisinə çevrildi.

## Chopard



Bu məşhur markanın arxasında demək olar ki, 150 illik tarix var və zəfər yürüşü qol saatlarının istehsalı ilə başlayıb. Mövcud olduğu bütün dövr ərzində şirkət 450-dən çox saat modeli buraxmışdır. Chopard zinət əşyaları, zərgərlik markasının 60 ildən çoxdur ortaq olduğu hər Cannes Film Festivalı zamanı tez-tez Charlize Theron, Penelope Cruz, Kate Winslet və bir çox digər məşhurlarda parıldayır. Marka hər il qarşıdan gələn tədbir üçün yüksək zərgərlik əşyalarının tematik kolleksiyasını buraxır.

İsveçrə markasının başqa bir möhtəşəm yaradıcılığı var, onu qeyd etməmək mümkün deyil. Bu, eyniadlı 342 karatlıq qüsursuz almazdan kəsilmiş misilsiz "Kalahari Kraliçası" brilyant kolleksiyasındadır - 23 möhtəşəm daş, Onlardan 5 20 karatdan çoxdur.

## Mikimoto



Yapon şirkəti Mikimoto ən məşhur zərgərlik markaları siyahımızı tamamlayır. Kokichi Mikimoto ilk dəfə 1896-cı ildə bənzərsiz bir mədəni həqiqi inci üsulunu patentləşdirdi. Bu il marka tarixinin başlanğıc nöqtəsi hesab edilə bilər. Bir neçə il ərzində Mikimoto inciləri dünyaca məşhur oldu. Qeyd edək ki, bu brendlərin məhsullarını Azərbaycanda da rast gəlmək mümkündür. Hətta bir çoxlarının özəl butikləri belə fəaliyyət göstərməkdədir.

## Carrera y Carrera



Brendin əsası 1885-ci ildə qoyulub. Şirkətin tarixi bir ailə şirkəti olaraq başlamışdır. Artıq Carrera y Carrera aksesuarları geniş miqyaslı əhatə dairəsi, cəlbedici çaları, flora və faunanın açıq rəmzləri, ekzotik motivlər, yumşaq xətlərin və siluetlərin gözəlliyini, şərq fəlsəfəsinə və heykəltəraşlıq məhsullarına olan marağı ilə tanınır. Early Las Manos (Hands) və müasir Jardin de Rosas (Rose Garden) markanın ruhunu əks etdirən kolleksiyalardır. Carrera zinət əşyaları mini heykəlləri xatırladır və yüksək sənət adlandırılmasına layiqdir.

## İqtisadiyat

# Azərbaycanda "qızıl exchange"ləri yaradılır




### Proqnozlara görə, bu mərkəzlərin yaradılması ikinci əl bazarının "kölgə iqtisadiyyatı"ndan çıxarılmasına mühüm töhfə verəcək

***Bu gün Azərbaycanın qızıl bazarında vəziyyət heç də ürəkaçan deyil və bu sahədə çoxsaylı problemlər mövcuddur. Məsələn, zərgərlik sənayesində keyfiyyətə effektiv nəzarət mexanizminin olmaması ciddi iqtisadi itkilərlə müşayiət olunur. Xüsusilə də əyar nəzarəti mexanizminin yetərli olmaması bu gün pərakəndə satış seqmentinə mənfi təsir göstərir və istehlakçı hüquqlarının pozulmasına səbəb olur.***

### Vahid idarəetmə mexanizmi yoxdur

**Belə ki, "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunun 10.3-cü bəndinə əsasən, sahibkarlıq subyektləri tərəfindən istehsal olunan, həmçinin ölkədə satışa çıxarılan zərgərlik məmulatlarının dövlət əyarı olmalıdır.**

Qanunun bu müddəasına uyğun olaraq, ölkəyə gətirilən və ölkə ərazisində qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik əşyaları və digər məhsullar müvafiq dövlət orqanına təhlil, müayinə, sınaq və əyar üçün təqdim edilməlidir. Bununla birlikdə, son illərdə ticarət mərkəzlərində və zərgərlik mağazalarında, habelə dövlət təhlili markaları olmayan naməlum mənşəli əyar sikkəsi olan on minlərlə məhsul aşkar edilib. Bundan başqa, üzərində göstərilən qızıl və gümüş əyarlarına uyğun gəlməyən, qiymətli metalın çəkisi göstəriləndən az olan, qiymətli daşları keyfiyyətsiz olan və s. zərgərlik məhsulları satılır.



**Rəşad Həsənov,**
iqtisadçı ekspert

Burada xatırlatmaq yerinə düşər ki, 2018-ci ilin sonuna qədər Maliyyə Nazirliyi yanında Dövlət Əyar Palatası ölkədə satılan zərgərlik məhsullarına nəzarət funksiyasına malik idi, lakin bu qurum ləğv olunduqdan sonra sözügedən sahədə vahid idarəetmə mexanizmi yoxdur, təchizatçı və alıcı hüquqlarının pozulması riskləri nəzərəçarpacaq dərəcədə artıb. Hazırda bu sahədə ciddi pərakəndəlik hökm sürür.

### Alış və satış qiyməti arasında ciddi fərq

**Azərbaycanın qızıl bazarında mövcud problemlərdən biri də qızılın alış və satış qiyməti arasında ciddi fərqin ortaya çıxmasıdır.**

Məsələn, istehlakçı bu gün 1000 manat dəyərində aldığı qızıl məmulatını bir gün sonra satmaq qərarına gələrsə, onu ən yaxşı halda 650-700 manata sata biləcək. Halbuki xarici ölkələrdə bu fərq 0,1-0,5 faiz civarındadır. Ekspertlər isə mövcud vəziyyətdən çıxış yolu olaraq qızılın investisiya bazarı kimi inkişaf etdirilməsinin, "qızıl exchange"lərinin yaradılmasının zəruriliyini vurğulayırlar.

Qeyd edək ki, Azərbaycanda qızıl bazarındakı mövcud vəziyyət aidiyyəti qurumları da narahat etməkdədir və hazırda mövcud problemlərin həlli istiqamətində çıxış yolları axtarılır. "Azer-Gold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimovun sözlərinə görə, 2020-ci ilin fevralın 18-də İqtisadiyyat Nazirliyinin təşəbbüsü və rəhbərliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "AzerGold"un iştirakı ilə "Azərbaycanda zərgərlik bazarının inkişaf perspektivləri: problemlər və imkanlar" mövzusunda sahibkarlarla görüş keçirilib, zərgərlik sənayesinin inkişafının ləngidən bir sıra problemlər gündəmə gətirilib: "Görüşdə İqtisadiyyat Nazirliyi və digər qurumlar tərəfindən zərgərlik bazarında alternativ yollarla, yəni qaçaqmalçılıq, vergilərdən yayınma və s. üsullarla məmulatların satışa çıxarması və müvafiq nəzarət orqanının mövcud olmamasından istifadə edərək göstəriləndən daha az əyarlı məhsulların alıcılara təqdim etməsi əsas problemlərdən biri kimi qeyd olunmuşdur. Bununla yanaşı, müəyyən edilib ki, Çin, Hindistan, İtaliya və Türkiyə kimi bu sahədə zəngin təcrübəyə malik ölkələrdə xammal qızıl, qiymətli daşlar və hazır məmulatların maya dəyərinə əlavələrin (ƏDV və digər rüsumlar daxil) təqribən 0-24 faiz arasında təşkil etdiyi halda, ölkəmizə idxal olunan xammal qızıl, qiymətli daşlar və məmulatlara maya dəyərinin əlavələri ortalama 42 faizdək artır. Bu da bazar iştirakçıları tərəfindən xammalı qeyri-qanuni yollarla əldə edərək alternativ yollarla istehsal etməyə, eyni qaydada da satışa çıxarmağa və nəticədə vergi və rüsumların ödənilməsindən yayınmağa sövq edir. Digər tərəfdən, dünyada müasir və innovativ keyfiyyətə nəzarət mexanizmlərinin mövcud olmasına baxmayaraq, hazırda yerli zərgərlik sənayesinin dəyər zənciri üzrə keyfiyyətə nəzarət sistemlərinin yoxluğu iqtisadi itkilərə, tədarükçülərin və alıcıların hüquqlarının pozulmasına səbəb olması faktları əsas problem kimi müəyyən edilib".

### İşçi qrup yaradılıb

**Z. İbrahimov qeyd edib ki, bütün bu problemlərin həlli məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən İşçi qrup yaradılıb:** "İşçi qrupun fəaliyyəti çərçivəsində hazırlanmış təkliflər zərgərlik sənayesində mövcud fiskal siyasət çərçivədə stimullaşdırma, gömrük rüsumlarının, o cümlədən, aksiz və əlavə dəyər vergisinin optimallaşdırılması, məmulatların dövriyyəsinə və keyfiyyətinə nəzarət mexanizminin tətbiqi, maliyyələşdirmə və stimullaşdırma mexanizmlərinin formalaşdırılması, zərgərlik ənənələrinin gənc nəslə ötürülməsi məqsədilə peşə təhsil məktəblərinin yaradılması və s. istiqamətlərdə sistemli islahatların aparılmasını ehtiva edir. İslahatların icrası nəticəsində zərgərlik sahəsi üzrə ölkə büdcəsinə vergi və rüsum formasında daxilolmaların artacağı gözlənilir. Bununla yanaşı, artıq qızıl istehsalçıları rəsmi və şəffaf formada xammal əldə etmək və bu xammaldan istehsal ediləcək qızıldan hazırlanan məmulatların ixracını rahatlıqla həyata keçirmək imkanını da qazanmış olacaqlar".

> *Azərbaycanın qızıl bazarında oyunçuların sayının artırılması və bazarın təşviq edilməsinə ehtiyac var*

### Zərgərlik qurğularının idxalı vergidən azad ediləcək

**Yeri gəlmişkən, Azərbaycanda zərgərlik sahəsində istifadə olunan dəzgah, avadanlıq və qurğuların idxalı vergidən azad ediləcək. Bununla bağlı məsələ Vergi Məcəlləsinə dəyişiklikdə öz əksini tapıb.**

Dəyişikliyə əsasən, zərgərlik sənayesində islahatların aparılması, valyutanın xaricə axınının qarşısının alınması, bunun müqabilində qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı ilə məşğul olan yerli sahibkarların təşviq edilməsi, zərgərlik və nəqqaşlıq kimi qədim peşələrin inkişafına töhfə verilməsi, onların fəaliyyətinin dəstəklənməsi məqsədilə qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə təsdiqedici sənəd əsasında dəzgah, avadanlıq və qurğuların idxalının - 2021-ci il yanvarın 1-dən 3 il müddətinə və külçə, sikkə və qranul şəklində qızılın və gümüşün satışının əlavə dəyər vergisindən, eləcə də idxal olunan platin, qızıl və onlardan hazırlanmış zərgərlik və digər məmulatlar, emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş almaz - 2021-ci il yanvarın 1-dən 3 il müddətinə aksizdən azad edilməsi təklif edilir.

Eyni zamanda, Kəlbəcər rayonunun işğaldan azad edildiyini və rayonun böyük qızıl ehtiyatına malik olduğunu nəzərə alaraq, sözügedən vergi güzəştləri Kəlbəcər rayonunun qızıl ehtiyatının səmərəli şəkildə istismar olunmasını təmin etməklə ölkə iqtisadiyyatına töhfə vermiş olacaqdır. Dəyişiklik ötən gün Milli Məclisdə müzakirələrdən sonra səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

### Qızıl investisiya bazarı kimi inkişaf etməlidir

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı ekspert Rəşad Həsənovun sözlərinə görə, Azərbaycanda qızıl bazarı çox məhdud bazardır:** "Ona görə də bu bazar Azərbaycanda daha çox zinət əşyalarının alınıb satılması bazarı kimi təşəkkül tapıb. Xarici ölkələrdə qızıl investisiya vasitəsidir. Bu baxımdan da qızılın alışı və satışı arasında qiymətlər çox cüzidir. Yəni kiçik faizlərlə ifadə olunan marjadır. Azərbaycanda isə dünya təşkilatçısı kimi alınıb satıldığı üçün qızılın alışı və satışı arasında kəskin fərq var. Yəni burada təxminən 10 bəzən də 15 dollara qədər, lom şəklində olan qızılda isə 50 faizə qədər fərq olur ki, bu da investisiya yatırılması baxımından sərfəli deyil.

Biz bu fərqi aradan qaldırmaq üçün qızılın investisiya bazarı kimi inkişaf etdirilməsini təmin etməliyik. Bu məsələ sahibkarlıq subyektləri üçün də əlavə problem yaradır. Sahibkarlıq subyektlərinin dövriyyəsi qızılın daha çox zinət əşyası kimi satışından formalaşır. Alternativ investisiya bazarının olmaması qızıl bazarının əhatəliliyinin də kiçik olmasını şərtləndirir. Xüsusilə bu böhran dövrlərində özünü daha aydın göstərir. Dünyada böhran olanda zinət əşyası kimi qızıla tələb aşağı düşsə də, ehtiyat yığım risksiz sayıldığından tələb artır. Bu baxımdan, Azərbaycanın qızıl bazarında oyunçuların sayının artırılmasına və bazarın təşviq edilməsinə ehtiyac var".

### "AzerGold" qızıl bazarının inkişafında maraqlıdır

**"AzerGold" QSC-nin mətbuat xidmətinin rəhbəri Ariz Tarverdiyev isə hafta.az-a açıqlamasında bildirib ki, təmsil etdiyi qurum Azərbaycanın qızıl bazarının inkişaf etdirilməsində maraqlıdır:** "Aparılan sistemli islahatların nəticəsində "AzerGold" tərəfindən atılacaq ilk addımlardan biri kimi satış mərkəzinin yaradılması nəzərdə tutulub. Belə deyək də, "qızıl exchange"ləri yaradırıq. Artıq bu istiqamətdə müvafiq işlərə başlanılıb. Burada yalnız "AzerGold" tərəfindən istehsal edilən sikkə və külçələrin minimal mənfəət marjası ilə satışı və bu məhsulların qızılın dünya birjasındakı cari qiymətinə uyğun geri alışı reallaşdırılacaq. Yəni, həm istehsal etdiyimiz qızılı satacağıq, həm də geri alacağıq. Tətbiq edilməsi planlaşdırılan sistem həm də bu sahədə ikinci əl bazarının "kölgə iqtisadiyyatı"ndan çıxarılmasına mühüm töhfə vermiş olacaq".

✍ *Sevinc*

## Reportaj

**Çiçəkdən kosmetikaya, texnoloji alətlərə, pal-paltara qədər, sevdiklərini hədiyyələrlə xoşbəxt etmək istəyənlər 14 fevral sevgililər günündən öncə, qızıl dükanlarının da yolunu tuturlar. Toylar və bayramlar hər kəsdən çox qızıl satışı ilə məşğul olanların işinə yarayır. Xüsusən də sevgililər günü səbəbi ilə 1 həftə-10 gün öncədən burada hərəkətlilik başlayır. 14 fevral tarixinin sevgililərlə yanaşı, zərgərlər üçün də böyük əhəmiyyəti var.**



# Sevgililər günü öncəsi qızıl bazarı

Axı, xanımların ən çox sevdikləri hədiyyə məhz elə qızıldır. İndi nəzərə alsaq ki, 1 ilə yaxındır, ölkədə toyların keçirilməsinə qadağa var, onda bu satışlara da təsir etmək deməkdir. Hafta.az-ın əməkdaşı pandemiya şəraitində keçən 14 fevral ajiotajı ilə bağlı qızıl-zinət əşyaları satılan mağazalara üz tutdu.

Qızıl-zinət əşyalarının satışı ilə məşğul olanların toplandığı "Moskva" univermağı bir müddətdir bağlı olsa da, ətrafı belə mağazalarla doludur.



Öncə onu deyək ki, burada mövcud vəziyyətdən heç bir satıcı razılıq etmədi. Daha dükanlarda da əvvəlki kimi tünlük müşahidə olunmurdu. Satıcılar qanı qara olsalar da, gələn müştərini itirməmək üçün dəridən-qabıqdan çıxırdılar.

■ **Qızıl-zinət əşyaları satılan mağazalardan birinə yaxınlaşdıq. Mağazanın əməkdaşı ilə həmsöhbət olduq. Cavablardan da hiss edilirdi ki, xanım uzun illərdir bu işlə məşğuldur. Satıcı deyir ki, toy yoxdur, həddindən artıq ziyandayıq.**

- Satış onsuz da əvvəlki dövrlərə nisbətən çox azdır. Sadəcə, indi camaat qiymətlərin qalxmasından qorxur. Elə müştərilərin çoxu buna görə qabaqcadan, toylar başlamamış qızıl alanlardır.

***- Gömrükdə son vaxtlar qızılların ölkəyə gətirilməsi ilə bağlı sadələşmiş qaydalar tətbiq olunub. Bu qiymətin ucuzlaşması deməkdir?***

- Hələ bu söhbət təzə çıxıb, artıq neçə müştəri girib endirimi soruşur. Burada bütün mallar qızılın qiyməti qalxmamışdan öncə alınanlardır. O qızılları bu gün az da olsa ucuz qiymətə satmaq mümkündür. Qiymət artımı ilə alınmış qızılı sabah endirim olsa da, ucuz satmaq mümkün deyil. Gündəlik birja ilə işləyirik.

***- Satışda sovet qızılı var?***

- Xırda dükanlarda indi sovet qızılı tapmaq elə də asan deyil. Sırf həmin qızılların alışı və satışı ilə məşğul olan mağazalar var. Onların da öz müştəriləri olur.

***- Müştərilər ən çox hansı hansı ölkənin qızılına üstünlük verir?***

- Seçimdən asılıdır. Daha çox 750 əyar olanlara üstünlük verilir.

***- 750 əyar, yəni italyan qızılı?***

- Bəli, adətən elə deyirlər. Qızıllar model və əyar olaraq seçimlərə ayrılır. 750 əyar, bir növ, qızılın tərkibindəki qatqının səviyyə ölçüsüdür. Bu əlavə qatqılar da ona görə vurulur ki, qızıl partlayıb, əzilməsin.



Qızılın qatqısı mütləq olmalıdır. Onun tərkibinə holladium və yaxud gümüş vurulur ki, gələcəkdə böyütdürüb, kiçiltdirmək lazım gələrsə problem yaranmasın. Bu yaxınlarda müdiriyyət Honkonq sərgisindən bir üzük gətirdi. Həmin üzük müştərinin əlinə balaca oldu deyə, xanım üzüyü böyütdürmək üçün bizə gətirdi. Üzüyü oda vuran kimi, əriyib getdi. Yəni firma həmin məhsulu sırf qızılla işləyib sərgiyə çıxarıb. Gərək elə modellərin üzərində dəyişiklik etməyəsən.

***- Azərbaycan qızılı bəs necə, hazırda satışda var?***

- Əlbəttə var. Bakıda qızıl emalı zavodları mövcud idi. İndi bilmirəm, onlar fəaliyyət göstərir, ya yox. Bizim öz qızıllarımızın keyfiyyəti heç də xaricdəkindən əskik deyil. Uzun illər əvvəl bizim də işlədiyimiz Bakı, Kiyev, Yerevan qızıl emalı zavodları var idi. O vaxt Azərbaycan qızılları dünyada birinci yeri tuturdu. Köhnə zavod qızılları, adətən, gül, "obodok" şəklində və ovalformalı sırğalar olurdu.

Satıcı ilə sağollaşıb asta addımlarla yolumuza davam etdik. Budəfəki dayanacağımız "Gold Centre"dəki xırda dükanlar oldu.

■ **Burada 6-7 ildir qızıl satışı ilə məşğul olan Aysel xanım bizi maraqlandıran bir neçə məqama aydınlıq gətirdi. Deyir ki, bu illər ərzində qızılın ən az alındığı vaxt pandemiya dövründən indiyə qədərdir.** Qiymətlərə gəldikdə isə burada rus qızılının əyarı 585, alışı 57 manat, satışı isə fərqlidir. Əsasən, 75 manatdan başlayan qiymətlərlə təklif edilir. Türk və rus qızıllarının qiymətləri arasında heç bir fərq yoxdur. Ərəb qızılı isə əksər hallarda 916 "prob"olur, onun alışı 85-90, satışı isə 120-130 manat arası dəyişir. İtalyan qızılının əyarı 750-dir. Qiyməti modelindən asılı olaraq 120-150 manat arası dəyişir.

***- Müştərilərinizin sayı pandemiyadanöncəki dövrlə müqayisədə azalıb, ya artıb?***

- Satışlar daha əvvəlki kimi deyil. Üç-dörd gün sonra 14 fevraldır, di gəl ki indi heç kimdə sevgililər günü coşqusu hiss edilmir. Ötən illərdə 14 fevral ərəfəsi müştəri əlindən bəlkə də içəri "iynə atsan yerə düşməzdi".

***- Bəs ən çox hansı əyyarda və növdə qızıllar satılır?***

- İndi tələbat daha çox türk qızılınadır.

***- Ucuz olduğu üçün?***

- Xeyr, həm çeşidləri çoxdur, həm də bir-birindən gözəldir... Model olaraq daha çox "pandorra"ya üstünlük verilir. Pandorranın hər çeşidi - sırğası, üzüyü, boyunbağısı alınır.

***- Hazırda satışda Azərbaycan qızılı var?***

- Azərbaycan qızılı olur ki? Düzünü desəm bunu bilmirdim. Bizdə bütün qızıllar xaricdən gətirilir.



***- Bəs sovet qızılı, necə?***

- Xeyr yoxdur, heç soruşan da olmayıb.

***- Tutaq ki, mən sizdən 200 manatlıq qızıl aldım. Daha sonra onu sizə neçəyə sata bilərəm?***

- Qiymət dəyişəcək, almaqla-satmaq arasında böyük fərq var. Bu da bizdən asılı olan bir şey deyil. Özümüz də hər gün internetdən qızılın alış və satış qiymətlərinə baxırıq. Elə işimizi də buna uyğun qururuq.

■ **Yaxınlaşdığımız digər zinət əşyalarının satışı bölməsində əməkdaşa özümüzü təqdim edib, satışların necə getdiyini soruşduq. Köksü dolu satıcı deyir ki, indi alan yoxdur.**

- Əvvəl toylar var idi. Müştəri gəlib dəst qızıl və brilyant alırdı. İndi gələnlər ancaq hədiyyəlik - üzük, ya da boyunbağı alır. Qiymət də pis deyil, ancaq alan yoxdur. İnanın Allaha, pandemiyadan bu yana, dükandan cəmi 2-3 dənə zəncir satmışam. Camaatda pul yoxdur. Mağazaya gələnlər daha çox qızıllarını satanlardı.

■ **Sonuncu həmsöhbətimiz Tural Ağayev digər satıcılar kimi, müştəri qıtlığından narazılıq etdi. O deyir ki, xırda-xuruş üzük, boyunbağı və sırğaların satışı elə də pis deyil. Müştərilər ən az rus qızılı alır, daha çox tələbat isə italyan malınadır.** Qeyd edək ki, burada da qızılın qiyməti digər dükanlardakı ilə oxşar idi. Brilyant isə fərqli qiymətlərə var. Satış, adətən, 500 manatdan başlayır. Ticarət obyektindəki brilyant qaşlı dəstlərdən 1 500 manat dəyərində olanı da var, 6 000 manata olanı da. Satıcı onu da qeyd etdi ki, 14 fevralla bağlı bütün növ zinyət əşyalarına, xüsusən də brilyanta endirimlər var. Müştərilər mövcud zinyət əşyasını həm onlayn, həm də mağazaya yaxınlaşıb əldə edə bilərlər. Apardığımız araşdırmadan bu nəticəyə gəldik ki, pandemiya qızılın satışını xeyli aşağı salıb. Pulda ağır, yükdə isə xəfif olan bu dəyərli zinyət əşyalarının satıcıları, indi toy etmək istəyən cütlüklər kimi, Covid-19-un bitməsini səbirsizliklə gözləyirlər.

✍ *Banu*

# Özəl orta məktəblərin "özəl" qiymətləri

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif,
təhsil proqramlarının hazırlanması

## Layihə

***Koronavirus pandemiyası ilə əlaqədar ötən ilin mart ayından ölkədə tədris prosesində fasilələr yaranıb. Hazırda dərslər epidemioloji vəziyyətə uyğun olaraq həm distant, həm də əyani formada aparılır. Övladları özəl orta məktəblərdə təhsil alan valideynlər isə mövcud şəraitlə bağlı təhsil haqlarında müəyyən güzəştlərin tətbiq edilməsini istəyirlər. Onların fikrincə, pandemiya müddətində məktəblər kommunal, icarə və digər xərclərdən azad olduğundan valideynlərə təhsilhaqqı məsələsində güzəşt edilməlidir.***



### Pandemiya dövründə hansı təhsil müəssisəsi valideynlərə təhsilhaqqı məsələsində güzəşt tətbiq edib?

Qeyd edək ki, Azərbaycanda özəl orta təhsil müəssisələrində illik ödənişlər əksər ali məktəblərin təhsil haqqından qat-qat yüksəkdir. Belə ki, ölkəmizdə özəl təhsil müəssisələrində ən aşağı qiymət 2000 manatdan başlayır. Bu qiymətə yalnız təhsil daxildir, geyim və servis xidmətinin qiyməti ayrıca hesablanır. Təbii ki, bu özəl sektorda ən aşağı qiymət hesab olunur. Çünki Azərbaycada illik təhsilhaqqı az qala Harvard Universitetinin təhsil haqqı səviyyəsində olan orta məktəblər də var. Məsələn, Azərbaycan Beynəlxalq Məktəbi ("TISA International School of Azerbaijan") məktəbində təhsil bağça yaşından başlayır.

Burada valideynlər uşaqlarının məktəbə hazırlığı üçün 11 min ABŞ dolları ödəməlidir. 1-ci sinifdən 9-cu sinfədək isə təhsil haqqı illik olaraq 34 min ABŞ dolları təşkil edir. 9-cu sinifdən yuxarı təhsil haqqı təxminən 40 min ABŞ dollarıdır.Və yaxud hazırda 600-ə yaxın şagirdin təhsil aldığı Baku Oxford School tam orta ümumtəhsil məktəbinin illik təhsil haqqı 15 500 manatdır. Burada 1-ci sinifdən 11-ci sinfə qədər təhsil haqları eynidir. Bu məbləğə servisdən başqa hər şey daxildir. Digər təhsil müəssisələrindəki qiymətlərə nəzər salaq:

**ABC - Azərbaijan British College**
İbtidai təhsil- 15 400 AZN
Orta təhsil- 16 400 AZN
Müasir Təhsil Kompleksi
Azərbaycan bölməsi- 12 000 AZN
Xarici bölmə- 16 000 AZN

**"XXI Əsr" Beynəlxalq Təhsil və İnnovasiya mərkəzi**
Azərbaycan bölməsi - 8000 AZN
Rus bölməsi- 10 000 AZN
İngilis dili- 12 000 AZN

**Sabis Sun İnternational School**
İbtidai təhsil-11 500 (əlavə olaraq, transfer üçün 775 AZN, Dərslik 460 Azn, məktəbli geyimi üçün isə 400-500 AZN, qeydiyyat üçün isə 1250 AZN ödəniş etməli olcaqsınız)
Orta təhsil-11 900 (əlavə olaraq, transfer üçün 775 AZN, Dərslik 930 Azn, məktəbli geyimi 400-500 AZN, qeydiyyat üçün isə 1250 AZN ödəniş etməli olcaqsınız)

**Avropa Azərbaycan Məktəbi**
Məktəbəqədər hazırlıq - 7900 AZN
1-4-cü siniflər- 9950 AZN
5-9-cu siniflər- 12 000 AZN
10-11 siniflər- 14 000 AZN

**Xəzər Universitetinin "Dünya məktəbi"**
Azərbaycan, Rus bölmələri üçün
1-9-cu siniflər- 7500 AZN
8-ci sinif- 8000 AZN
9-11-ci siniflər- 8500 AZN
İngilis dili bölməsi üçün
1-4-cü siniflər- 9500 AZN
5-9-cu siniflər- 11 000 AZN
İB Diplom Proqramı X-XI siniflər
Dünya məktəbinin şagirdləri üçün - 12 000 AZN
Digər məktəbin şagirdləri üçün - 14 000 AZN

**Oxbridge Academy**
1-6 sinif- 6 500 USD
7-9 sinif - 7 800 USD
10-11sinif- 9100 USD
12-13 sinif - 11 700 USD

Yeri gəlmişkən, pandemiya dövründə valideynlərə təhsilhaqqı məsələsində güzəşt edilib-edilmədiyi barədə hafta.az olaraq özəl umumi təhsil müəssisələri arasında sorğu da keçirdik.

■ **Lakin təəssüflər olsun ki, Avropa Azərbaycan Məktəbi istisna olmaqla, digər təhsil müəssisələri müəyyən bəhanələr gətirməklə sorğumuzda iştirak etməkdən imtina etdilər. Avropa Azərbaycan Məktəbindən isə bildirdilər ki, pandemiya dövründə validenylərə təhsilhaqqında müvafiq olaraq 20,15, 10 faiz güzəşt ediblər:** "Məktəbəqədər təhsildə 20, 1-4-cü siniflərdə 15, 5-11-ci siniflərdə isə 10 faiz güzəşt tətbiq olunub. Biz eyni zamanda, "YAŞAT" Fondu ilə bərabər işləyirik. Yəni, həssas qrupdan olan ailələrin uşaqlarına təhsilhaqqı məsələsində əhəmiyyətli güzəşt edilir".

Bəs, görəsən, pandemiya dövründə Təhsil Nazirliyi özəl orta məktəblərə təhsil haqqı məsələsində güzəşt və ya endirim edilməsi ilə bağlı hansısa tövsiyyələr veribmi? Nazirliyə bu məsələdə dəstək göstərilməsi üçün valideynlər tərəfindən müraciət edilibmi? Ümumiyyətlə, Təhsil Nazirliyinin bu məsələyə müdaxilə etmək səlahiyyəti varmı?

■ **Mövzu ilə bağlı hafta.az-ın sorğusuna cavab olaraq Təhsil Nazirliyindən bildirilib ki, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə əsasən dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir:** "Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli, 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 8.11-ci bəndinə görə Nazirlik məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlbini təmin edir və icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir. Eyni zamanda sözügedən Əsasnamənin 9.5-ci bəndinə əsasən Nazirlik "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsil fəaliyyəti üçün verilmiş lisenziyanın tələblərinə və şərtlərinə riayət olunmasına nəzarət edir. Eyni zamanda "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 40.3-cü və 40.4-cü maddələrinə görə özəl təhsil müəssisəsi təhsil haqqının məbləğini hər bir təhsil pilləsi üzrə təhsil proqramlarına uyğun olaraq sərbəst müəyyən edir və özəl təhsil müəssisəsi ilə təhsilalanlar, valideynlər və ya digər qanuni nümayəndələr arasında münasibətlər müqavilə ilə tənzimlənir".



**Elçin Əfəndi,**
təhsil eksperti

*"Güzəşt olunmadığı halda valideynlər övladlarını özəl təhsil müəssisələrindən çıxarmalıdır"*

Nazirlikdən vurğulanıb ki, sözügedən quruma vətəndaşlar tərəfindən əsasən valideynlərin təhsil haqqlarını ödəyə bilmədiyi üçün özəl ümumi təhsil müəssisəsinin rəhbərliyi tərəfindən şagirdlərin təhsil sənədlərinin verilməməsi barədə müraciətlər daxil olur: "Bu kimi hallar müəyyən edildiyi zaman Təhsil Nazirliyi tərəfindən müvafiq araşdırma aparıldıqdan sonra mövcud qanunvericiliyə əsasən şagirdlərin dövlət ümumi təhsil müəssisələrinə yerləşdirilməsi təmin edilir".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən təhsil eksperti Elçin Əfəndi qeyd edib ki, ötən ilin mart ayından pandemiya ilə əlaqədar bütün təhsil müəssisələrində tədris sistemi distant formada həyata keçirildi:** "Bu zaman istər dövlət, istərsə də özəl təhsil müəssisələri tədrisin davamlılığını gözləmək üçün müxtəlif tətbiqi proqramlardan istifadə etməyə başladılar. Bu isə öz növbəsində narazılıqla qarşılandı.Tədricən Təhsil Nazirliyi teledərslər vasitəsilə vəziyyətdən çıxış yolunu tapdı. Ardınca isə "Microsoft Times" platforması ilə dərslərin tədrisinə başlandı. Amma çox təəssüf ki, bu platforma, eləcə də digər tətbiqlər tam əhatəliliyi təmin etmədi. Xüsusilə nəzərə alsaq ki, respublikamızın ayrı-ayrı ucqar bölgələrində internet imkanları bərabər səviyyədə deyil, hətta deyərdim ki, tam təminat yoxdur. Belə olan halda təhsilin əlçatanlığından təbii ki, söhbət gedə bilməz".

Ekspert bildirib ki, özəl təhsil müəssisələrində təhsilhaqqına güzəşt edilməməsi ilə bağlı onlara da çoxsaylı müraciətlər daxil olur: "Bizə daha çox bağçalar və ibtidai təhsillə bağlı müraciətlər var. Təəssüflər olsun ki, özəl təhsil müəssisələri bu məsələdə güzəştə getmək istəmirlər. Düzdür, əyani tədris tədricən bərpa olunmağa başlayıb. Amma nəzərə almaq lazımdır ki, əksər iş yerləri hələ də bağlıdır və fəaliyyətləri bərpa olunmayıb. Buna baxmayaraq özəl məktəblər şagird və tələbələri sıxışdırmaqla ödənişlərini tələb edirdilər. Təəssüflər olsun ki, onlar özləri də əlverişli olmayan durumda verdikləri təhsilin keyfiyyət göstəricisinin aşağı olmasının fərqinə varmadan güzəştlər etmirlər. Hesab edirəm ki, güzəşt olunmadığı halda valideynlər övladlarını özəl təhsil müəssisələrindən çıxarmalıdır. Çünki əhalinin uzun müddət karantin rejimində qalması sosial durumu çətinləşdirib. Məhz bunlar nəzərə almaqla təhsilhaqqından endirim edilməlidir. Təklif edirəm ki, özəl təhsil müəssisələri bunları nəzərə alsınlar.

Valideynlər də güzəşt olunmadığı halda övladlarını dövlət təhsil müəssisələrinə yönləndirsinlər. Özəl təhsil müəssisələri nəzərə almalıdır ki, onlar məhz öz şagirdlərinin hesabına inkişaf edirlər və bu durumda kompromisə getmək vacibdir. Bu məsələyə Təhsil Nazirliyi də müdaxilə etməlidir. Düzdür, özəl təhsil müəssisələri ayrıca sahibkarlıq subyektidir və nazirlik ancaq onların fəaliyyəti üçün lisenziya verir. Lakin düşünürəm ki, bununla bağlı müvafiq normativ sənədlər yenidən işlənilməlidir və nazirliyin bu kimi məsələlərə müdaxilə etmək imkanı olmalıdır".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çəkilən "Bir topa adam" filmi təqdim edildi




**Dağlıq Qarabağ münaqişəsindən bəhs edən "Bir topa adam" filmi bu günlərdə izləyicilərə təqdim edilib. "Qarabağ" silsiləsindən birinci film olan "Bir topa adam" filmində Qarabağ münaqişəsinin başlamasına rəvac verən hadisələr, ermənilərin törətdiyi qətliamlar, eyni zamanda bu müharibə fonunda baş verənlər real faktlarla ekranlaşdırılıb.**

Vətənpərvərlik mövzusunda çəkilən filmin məqsədi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri və müharibənin faciəvi nəticələrini beynəlxalq ictimaiyyətə çatdırmaqdır. "Planet Parni iz Baku Films" şirkətinin çəkdiyi ekran əsərinin senari müəllifləri Tahir İmanov və Ənvər Mansurov, rejissoru isə Ənvər Mansurovdur. Qeyd edək ki, filmin çəkilməsinə "Nar" da dəstək olub.

Tahir İmanovun sözlərinə görə, kino informasiya müharibəsinin ən güclü vasitələrindən biri olduğu üçün Vətən müharibəsinin gərgin dövrlərində Qarabağ münaqişəsi haqqında film çəkmək qərarına gəlirlər: "Həqiqətləri dünyaya çatdırmaq üçün filmlər çox güclü vasitələrdən biridir. Ona görə də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə film çəkməyi planlaşdırırıq. "Bir topa adam" filmində biz müharibənin əslində necə başladığını göstərməyə çalışmışıq. Biz bir ailənin prizmasından müharibənin dəhşətlərini canlandırmışıq. Filmin çəkilişində göstərdiyi dəstəyə görə "Nar"a öz təşəkkürümüzü bildirirk".

Qeyd edək ki, filmin tam versiyasına aşağıdakı link vasitəsilə baxmaq olar: https://www.youtube.com/watch?v=qgMnNvdS8Co

# "Qarabağ müharibəsi əlilləri rüsumlardan azad deyil"



**Musa Quliyev,**
Milli Məclisin deputatı

**Milli Məclisin iclasında komitə sədri Musa Quliyev çıxış edərkən bildirib ki, şəhid ailələrinin və qazilərin sosial təminatının yaxşılaşdırılması Prezidentin diqqət mərkəzindədir.**

Deputatın sözlərinə görə, "Dövlət rüsumu haqqında" qanunda şəhid ailələri və qazi ailələrinə güzəştlər nəzərdə tutulsa da, Qarabağ müharibəsi əlilləri bu rüsumlardan azad deyil: "Bu, uyğunsuzluq yaradır".

Deputat bu məsələnin hökumət orqanları ilə araşdırılması və qanunvericiliyə bununla bağlı dəyişiklik edilməsi təklifini irəli sürüb: "Əlaqədar hökumət orqanları ilə bu məsələni araşdıraq və uyğunsuzluğu aradan qaldıraq". M.Quliyev "Nizami Gəncəvi ili" ilə əlaqədar Gəncə aeroportunun adının dəyişdirilməsi barədə həmkarı Naqif Həmzəyevin təklifini müdafiə edib: "Gəncə aeroportuna Nizami Gəncəvinin adının verilməsi çox mühüm hadisə olar. Ölkənin tanınması, gələn turistlərin daha çox məlumat alması baxımından bu, çox yaxşı addımdır".

## BİR CÜMLƏ-BİR XƏBƏR

■ Milli Məclisin mətbuat xidmətinin rəhbəri Ceyhun Əli başqa vəzifəyə keçməsi ilə əlaqədar öz ərizəsi ilə işdən azad edilib, onun yerinə Mehman Qayıbov təyin edilib.

---

■ İspaniyanın "Real" klubunun hücumçusu Kərim Benzema yeni müqavilə imzalamağa tələsmir, "kral klubu" yeni 1 illik saziş təklif etsə də, fransalı forvard gözləməyi məqsədəuyğun bilib.

---

■ Dünyaca məşhur cazmen və bəstəkar Çik Koria dünyasını dəyişib, 80 yaşlı cazmen 23 dəfə "Qremmi"nin sahibi olub, 37 dəfə sözügedən mükafata namizəd göstərilib.

---

■ "Bavariya"nın hücumçusu Robert Levandovski klublararası dünya çempionatının ən yaxşı oyunçusu seçilib, ikinci yeri Meksikanın "Tiqres" komandasının hücumçusu Andre-Pyer Jinyak tutub. "Bavariya"nın müdafiəçisi Yozua Kimmix 3-cü olub.

---

■ Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Günel Gözəlova vəzifəsindən azad edilib, bu barədə keçmiş mətbuat katibi özü məlumat yayıb.

---

■ "ASAN xidmət" mərkəzlərinə 7 milyon 279 min vətəndaş tərəfindən 41 milyondan artıq müraciət daxil olub, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

---

■ Şərur rayonunun inzibati ərazi bölgüsündə olan Dəmirçi kənd inzibati ərazi dairəsindəki Dəmirçi kəndi Sədərək rayonunun inzibati ərazi bölgüsünə daxil edilir.

---

■ 12 fevral 2021-ci il tarixində Xarici İşlər Nazirliyinin rəhbərliyinin Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlar yanında fəaliyyət göstərən diplomatik nümayəndəlikləri ilə video-konfrans formatında görüşü keçirilib.

---

■ Avropa Dərman Preparatları Agentliyi Almaniyanın "Curevac" şirkətinin hazırladığı koronavirus vaksininin ekspertizasına başlayıb, qərar preparatın laborator tədqiqatlarının və ilkin kliniki sınaqlarının nəticələri əsasında verilib.

---

■ Nigeriya sahillərində dəniz quldurlarının girov götürdüyü 15 türk dənizçi xilas edilib, bu barədə Boden Dənizçilik şirkətinin baş direktoru Levent Karsan məlumat verib.

---

■ Bakıda daha bir küçənin təmirə bağlanması səbəbindən 11 nömrəli marşrutun hərəkət sxemi müvəqqəti olaraq Xudu Məmmədov küçəsi - Gəncə prospekti - Sadıqcan küçələri ilə təşkil edilib.

---

■ Dörd aydan çoxdur komada olan Vətən müharibəsi qazisi İsmayılzadə Tacəddin Vüqar oğlu vəfat edib, 24 yaşlı Sumqayıt sakini T.İsmayılzadə müalicə aldığı xəstəxanada şəhidlik zirvəsinə yüksəlib.

---

■ Gürcüstanın əsas müxalifət partiyalarından olan "Avropalı Gürcüstan" partiyasının sədri David Bakradze vəzifəsindən ayrılır, o bu barədə partiyanın iclasından sonra keçirdiyi brifinqdə məlumat verib.

Araşdırma

# Kosmosda nüfuz uğrunda mübarizə

***Bu** günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qardaş türk xalqına qürurlandırıcı bir müjdə verdi. Bildirdi ki, Cümhuriyyətin quruluşunun 100 illiyində - 2023-cü ildə və təbii ki, eyni zamanda ölkəsində kosmik proqramın 10-cu ildönümündə türk astronavtların Ayın səthinə enməsini planlaşdırıblar. Bu, kosmik müstəvidə həyata keçiriləcək 10 hədəfdən ən vacibidir. Bu yerdə qeyd edək ki, 1972-ci ildən sonra Aya çox sayda insansız kosmik gəmi göndərilsə də, bir nəfər də olsun astronavt ora getməyib. Çox qəribədir ki, Prezident Ərdoğanın bu müjdəsini ölkə müxalifətinin bəzi ümsürləri tənqid edib, ucuzlaşdırmağa çalışırlar. Əlbəttə ki, bu layihə dünyanın çox az sayda, özü də iqtisadi baxımdan güclü inkişaf etmiş ölkəsində icra olunur. Bu da o deməkdir ki, kosmik proqramların fəal tərəfdaşı olan dövlətlər dünyada sözünü deyə bilən güc kimi qəbul olunurlar.*




Əslində, Türkiyədə kosmik proqramın tarixi o qədər də qədim deyil. Qardaş ölkənin bu gün kosmik fəzada 6 peyki mövcuddur. Bunlardan ilki 2001-ci, sonuncusu isə 2016-cı ildə kosmosa göndərilib. Türkiyədə Kosmik Agentlik isə 13 dekabr 2018-ci ildə qurulub. İlk türk istehsalı milli peyk - "Türksat 6A"nın kosmosa göndərilməsi 2022-ci ildə nəzərdə tutulub. Bununla da Türkiyə kosmik güc sayılan 10 ölkədən biri olacaq. On ölkə demişkən, maraqlıdır, dünyada kosmosa peyk göndərən neçə ölkə var, neçə peyk buraxılıb və sair?

Hazırda dünya ölkələrinin kosmosda ümumilikdə 2 666 peyki mövcuddur. Onun da böyük hissəsi - 1440-ı sırf ticarət məqsədilə, 436-sı dövlət işlərində, 339-u hərbi, 318-i qarışıq məqsədlərlə istifadə edilir. Sırf mülki müstəvidə cəmi 133 peyk xidmət göstərir.

■ **Bəs ən çox peyk hansı ölkəyə məxsusdur? Siyahı aşağıdakı kimidir:**

ABŞ 830 (bəzi rəqəmlərə əsasən 1300) peyk, Çin 280, Rusiya 147, Beynəlxalq Birlik 145, Yaponiya 75, Böyük Britaniya 54, Hindistan 54, Kanada 37, Almaniya 29, İspaniya 17, Argentina 14, Türkiyə 6 peyk. Qalan bütün ölkələrin isə ümumilikdə 236 peyki mövcuddur. Kosmosda 33 peyki və onları idarə edən müstəqil Kosmik Agentliyi olan cırtdan bir ölkə var ki, onun bu müstəvidə uğurları hər kəsi heyrətləndirə bilər. Bu ölkə Lüksemburq knyazlığıdır. Heç kim inanmaz ki, hazırda Lüksemburq kosmosdakı peyklərinin sayına görə, Almaniya, İtaliya və İspaniyadan irəlidədir.

Yeri gəlmişkən, Azərbaycanın da 3 peyki var. Qeyd edək ki, Azərbaycanda da kosmik proqram icra edilməkdədir. Cənubi Qafqazda ilk peyk operatoru olan "Azərkosmos" Prezidenti İlham Əliyevin 2010-cu il 3 may tarixli Sərəncamı ilə telekommunikasiya peykinin hazırlanması, orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə yaradılıb. 2013-cü il fevralın 8-də Azərbaycan kosmosa Azerspace-1/Afrikasat-1a adlı ilk süni peykini buraxıb. Uçuş Fransa Qvianasındakı Kuru kosmodromunda reallaşdırılıb. Peykin adının Azerspace-1/Africasat-1a olmasının səbəbi, onun əhatə dairəsinə Orta Asiya, Avropa və Afrika regionunun da daxil olmasıdır. Peykin ərsəyə gəlməsi üçün 230 milyon manat xərclənib. Bu məbləğin 15 faizi dövlət büdcəsindən, qalanı kreditlərlə ödənilib.

Azərbaycan növbəti dəfə orbitə 2014-cü il iyunun 30-da "Azersky" adlı müşahidə peykini buraxıb. 157 milyon avro dəyəri olan peyk əsasən Azərbaycanın müdafiə və təhlükəsizliyinə xidmət edir.

Üçüncü peykimiz olan "Azerspace-2" isə 2018-ci il sentyabrın 28-də kosmosa buraxılıb. Fransız Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılan peykin dəyəri 190 milyon dollar olub.

Günümüzdə bir çox ölkələr kosmik proqramlarını inkişaf etdirmək üçün böyük məbləğdə büdcə ayırırlar. Məsələn, bu müstəvidə fəaliyyət yürüdən ölkələr arasında ən çox vəsait xərcləyən ölkə, gözlənildiyi kimi, ABŞ-dır. Son məlumata əsasən, Vaşinqton bu məqsədlə kosmik proqramların icraçısı olan NASA-ya ildə 23 milyard dollar civarında büdcə ayırmaqdadır.

■ **Siyahının ikinci pilləsində Rusiya qərarlaşıb. Xəbərlərə əsasən, Moskva son 5 ildə kosmik tədqiqatlar məqsədilə ayırdığı vəsaitin həcmini 30 faiz artırıb və ildə 8 milyard dollarlıq səviyyəyə yüksəldib.** Rusiya Prezidenti Vladimir Putin özü demişdi ki, sadəcə 2013-2020-ci illər ərzində ölkəsi Federal Kosmik Agentliyinə toplam 50 milyard dollar həcmində büdcə ayırıb.






■ **Dünya nəhəngi Çinin kosmik tədqiqatlar üçün ayırdığı büdcə indilik 8 milyard dollar olsa da, rəsmi Pekin bu müstəvidə əlavə qaynaqlar yaratmağa səy göstərir.** Çin Milli Kosmik İdarəsi - CNSA 2011-ci ildən bəri aya insansız kosmik gəmilər göndərir, Çinin ilk kosmik stansiyası olan Tiangongun orbitdə qurulmasına start verib. Tiangong proqramının məqsədi 2023-cü ilədək Rusiyanın "Mir" stansiyasına bənzər tam gücü ilə işləyəcək kosmik stansiya yaratmaqdır.

■ **Dördüncü yerdə 20 üzv ölkəni kosmik proqramda birləşdirən Avropa İttifaqı dayanır.** İttifaq Avropa Kosmik Agentliyinə (ESA) hər il 6 milyard dollar ayırır. 1975-ci ildə Parisdə qurulan ESA-nın proqramlarına Hubble kosmik teleskopu ilə yanaşı, insansız ay və yer üzü orbiti layihələri də daxildir. ESA, həmçinin orbitə peyk buraxan Ariane raket bazası ilə lider mövqeyini qoruyub saxlayır.

■ **Siyahının 5-ci pilləsində yer alan Fransa Kosmik Agentliyi olan GNES-ə ildə 2,5 milyard dollarlıq büdcə ayırmaqdadır.** 1961-ci ildə qurulan bu agentlik, ESA-da olduğu kimi, həm də beynəlxalq kosmik stansiyalarda çox böyük fəaliyyətə malikdir.

■ **Hindistan siyahıda 6-cı yerdədir və illik 2 milyard dollarlıq büdcəsi var. Hindistanın 2012-ci ildə başlatdığı kosmik proqramların bir hissəsini 2017-ci ildə tamamlayıb.** Hazırda Dehlinin əsas məqsədi kosmik texnologiya istehsalında lider mövqe qazanmaqdır.

■ **Yaponiya 2 milyard dollar həcmində büdcəsi ilə siyahıda 7-ci yerə sahiblənib.** Üç ayrı kosmik agentliyin birləşdirilməsi ilə 2003-cü ildə qurulan JAXA, sadəcə kosmik proqram deyil, həm də orbitə peyklər göndərir və astroitlərin tədqiqi ilə məşğul olur.

■ **Avropa iqtisadiyyatının nəhəngi olan Almaniya siyahıda 8-ci pillədədir.** Haradasa 2 milyard dollardan çox büdcəsi olan, 10 aktiv, 16 hələlik tamamlanmamış proqram üzərində işləyən Almaniya Kosmik Agentliyi DLR, indiyədək kosmik tədqiqatlarda önəmli rol alıb.

■ **İtaliya siyahının 9-cu pilləsində yer alıb. Bu ölkədə kosmik proqramların icrasına 1988-ci ildə başlanılsa da, ölkə, kosmik tədqiqatlar məsələsində NASA ilə müştərək çalışır.** Ofisi Romada yerləşən kosmik agentlik - ASİ, Avropanın kosmik fəaliyyətlərində yaxından iştirak edir.

■ **Siyahıda ilk onluğu Kanada tamamlayır. Cəmi yarım milyard dollarlıq büdcəsi ilə 2014-cü ildə yaradılan Kanada Kosmik Agentliyi var oluşunun ilk 3 ili ərzində kosmosa 3 peyk göndərməyi bacarıb.**

Hər kəsə bəllidir ki, Ay kosmosda Yer kürəsi və ümumiyyətlə, insanlıq üçün əhəmiyyətli göy cismidir. Odur ki, Yerin təbii peyki olan Ay hər zaman kosmik proqramlarda ön məqsədi təşkil etməkdədir. Bu məqsədlə də Ay alimlərin həmişə diqqətində olub, çox sayda tədqiqatlar aparılır, ora peyklər göndərilir və hətta astronavtlar da.

***Yeri gəlmişkən, Prezident Ərdoğan "Türkiyə astronavtları Aya ayaq basacaq beşinci dövlət olacaq" demişdi. Bəs əvvəlki dörd ölkə hansılardır?***

Bu siyahıda ilk yeri Rusiya və ya onun sələfi SSRİ tutur. Məhz Moskva 1959-cu ildə Aya ilk dəfə öz peyki Luna-2-ni göndərib.

Aya ilk peyk göndərmə fürsətini qaçırsa da, ilk insan göndərmək şansını ABŞ qazanıb. Məhz ABŞ astronavtları Neil Armstrong və Buzz Aldrin 20 iyul 1969-cu ildə ilk dəfə Ayın səthinə ayaq basıb, 8 gün sonra Yer kürəsinə qayıdıblar. Aya peyk gndərməyi bacaran üçüncü ölkə isə Yaponiyadır. Hətta Hiten proqramın icrasından sonra Ay Yaponyanı iri kosmik güclərin sırasına qatıb.

Çin isə Aya əli çatan son ölkədir. Ayın səthinə eniş edən 4-cü ölkə Çin bu üğuru 2019-cu ildə "Chang-e 3" adlı gəmini Ayın səthinə endirməklə qazanıb.

Təbii ki, məhz 2023-cü ildə bu siyahıya qoşulmaqla ilk beşliyi qardaş Türkiyə dövləti tamamlamaqda israrlıdır.

Ümumiyyətlə, kosmosa astronavt göndərən ölkələr çoxdur. Bunlardan ABŞ, Rusiya, Əfqanıstan, Braziliya, Bolqarıstan, Kanada, Çin, Kuba, Çexiya, Avropa Kosmik Agentliyi, Macarıstan, Hindistan, İsrail, Yaponiya, Qazaxıstan, Malayziya, Meksika, Monqolustan, Səudiyyə Ərəbistanı, Slovakiya, CAR, Cənubi Koreya, Suriya, Ukrayna, BƏƏ, Vyetnamı göstərə bilərik. Təəssüf ki, hələlik bu missiyada nə Azərbaycan, nə də qardaş Türkiyə yer almayıb. Göründüyü kimi, özünə, iqtisadiyyatına, elminə-texnologiyasına güvənən hər bir ölkə kosmik tədqiqatlar üçün vəsait ayırır, proqramlar icra edər. Hətta dünyanın ən kasıb ölkələrindən olan Əfqanıstan da rusların dəstəyi ilə kosmosa astronavt göndərib. Bu halda tarixdə öz sözünü demiş və bu gün də dünyanın sayılıb-seçilən gücü olan Türkiyənin kosmik layihələri qabartması təsadüfi deyil. Azərbaycan türkü olaraq biz isə yalnız bunu deyə bilərik: qardaş Türkiyənin uğurları elə Azərbaycanın uğurlarıdır.

*✍ Vüsal Tağıbəyli*

---

# Şagirdlərə "Azercell Telekom" tərəfindən hədiyyələr verildi Ⓡ

**Məktəblilərimiz informatika fənni üzrə müxtəlif miqyaslı Beynəlxalq olimpiadalarda ölkəmizi uğurla təmsil edərək 1 qızıl, 1 gümüş və 8 bürünc medal olmaqla ümumilikdə 10 medal qazanıblar. Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən icra edilən layihə çərçivəsində "Azercell Telekom" MMC-nin dəstəyi ilə informatika üzrə beynəlxalq olimpiadalara hazırlaşan məktəblilərimiz ötən il ərzində dəfələrlə mötəbər bilik yarışlarına qatılaraq yüksək nəticələr əldə ediblər.**

2020-ci ilin ilk belə yarışı yanvar ayında Qazaxıstanın Almatı şəhərində keçirilən 16-cı Beynəlxalq Jautıkov Olimpiadası olub. 20 ölkədən 588 şagirdin iştirak etdiyi bu yarışmada informatika fənni üzrə Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdləri Abutalıb Namazov (hal- hazırda təhsilini ABŞ Massazutes Texnologiyalar Gnstitutunda (MIT) davam etdirir) <https://-www.mit.edu/>qızıl, Murad Eynizadə (hal-hazırda təhsilini Cənubi Koreyanın Elm və Yüksək Texnologiyalar İnstitutunda (KAIST) davam etdirir) gümüş və Gəncə şəhər 15 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Əziz Hüseynov bürünc medal qazanıblar. Azərbaycan məktəbliləri ötən ilin avqustunda keçirilən Asiya Pasifik İnformatika Olimpiadasında da 33 ölkədən olan iştirakçılar arasında fərqlənməyi bacarıblar. Belə ki, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Eynizadə və Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov bu nüfuzlu yarışmada bürünc medal sahibi olublar. Sentyabr ayında Sinqapurda təşkil olunan və virtual formada keçirilən 32-ci Beynəlxalq İnformatika Olimpiadasında da Azercell-in dəstəklədiyi Azərbaycan komandasının üzvləri yaddaqalan nəticə əldə edərək 3 medal qazanıblar. 350-yə yaxın iştirakçı arasında üç azərbaycanlı şagird - Gəncə şəhəri M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbin X sinif şagirdi Əziz Hüseynov, Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdləri Abutalıb Namazov və Murad Eynizadə bürünc medala layiq görülüblər.

Ə.Hüseynov daha sonra Bolqarıstanın Şumen vilayətində informatika fənni üzrə 12-ci Beynəlxalq payız turnirində də uğurlu nəticə nümayiş etdirib. O, 17 ölkədən 403 iştirakçının qatıldığı turnirdə bürünc medal qazanıb. 16-22 dekabr 2020-ci il tarixlərində Moskva şəhərində keçirilən Beynəlxalq Meqapolislər Olimpiadasında




Bakı şəhəri 269 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Amin Cəlilov bürünc medal əldə edib. Qeyd edək ki, informatika fənni üzrə beynəlxalq olimpiadalara hazırlıq prosesi 2017-ci ildən etibarən "Azercell Telekom" şirkətinin dəstəyi ilə həyata keçirilir. Mobil operator gənclərin bilik və bacarıqlarının artırılmasına xidmət edən təşəbbüslər çərçivəsində Azərbaycanın müxtəlif bölgələrindən və paytaxt məktəblərindən onlarla şagirdin hazırlıq prosesinə cəlb edilməsinə yardımçı olub. Azərbaycan Respublikasının Təhsil İnstitutu ilə birgə icra edilən layihə çərçivəsində bu günə qədər məktəblilərimiz informatika fənni üzrə 1 qızıl, 6 gümüş və 18 bürünc medal olmaqla ümumilikdə 25 medal qazanıblar.

Bütün bu uğurlar, qazanılan medalların sayının və əyarının yüksəlməsi informatika üzrə istedadlı şagirdlərin aşkar edilməsi və onların dəstəklənməsi üçün təşəbbüslərin real nəticə verdiyini bir daha sübut edir. Xatırladaq ki, 2019-cu ildə ölkəmizdə keçirilən 31-ci Beynəlxalq İnformatika Olimpiadasında Azercell Rəqəmsal Sponsor qismində çıxış edib. Davamlı inkişafın əsas amili olan təhsil hər bir dövlətin, cəmiyyətin sağlam gələcəyinin etibarlı bünövrəsidir.

Məhz buna görə Azercell şirkəti fəaliyyət dövrü ərzində təhsilin və gənclərin inkişafına yönəldilmiş müxtəlif layihələrin təşəbbüskarı və dəstəkçisi qismində çıxış edib, savadlı kadrların yetişdirilməsinə daima dayaq olmağa çalışır.

---

## SUAL-CAVAB

***Əmək pensiyaçısına verilməli olan və onun vəfatı ilə əlaqədar alınmamış əmək pensiyası məbləğini və dəfn üçün müavinəti kimlər ala bilər və bu müavinət nə qədərdir?***

- "Əmək pensiyaları haqqında" qanununun 42.1-ci maddəsinə əsasən əmək pensiyaçısına verilməli olan və onun vəfatı ilə əlaqədar alınmamış əmək pensiyasının məbləği onun notarial qaydada təsdiq olunmuş varisinə ödənilir. Bu qanunun 42.2-ci maddəsinə əsasən əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə pensiyaçının vəfatı tarixinə əmək pensiyasının minimum məbləğinin üç misli məbləğində dəfn üçün müavinət verilir. 42.3-cü maddəsinə əsasən əmək pensiyaçısını onun ailə üzvlərinə aid olmayan şəxslər dəfn etdikdə, dəfn üçün müavinət həmin şəxslərə ödənilir. Hazırda bu məbləğ 480 manat təşkil edir.

***Xarici ölkə vətəndaşı Azərbaycanda torpaq mülkiyyətçisi ola bilərmi?***

- Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 48.3-cü maddəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər. Bununla yanaşı, 3 halda xarici hüquqi və fiziki şəxslər Azərbaycanda torpaq sahəsi üzərində mülkiyyət hüququ əldə edə bilərlər, lakin həmin hüququ 1 il müddətinə özgəninkiləşdirməlidirlər. Bu müddəa Torpaq Məcəlləsinin 49.4-cü maddəsində öz əksini tapıb. Belə ki, sözügedən maddəyə uyğun olaraq xarici hüquqi və fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən mülkiyyət hüququ bir il müddətinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirilir. Xarici hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində olan mülkiyyət hüququnu qanunvericiliyə uyğun özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini bu Məcəllədə nəzərdə tutulmuş qaydada məcburi satın alır.

***Hansı şəxslərə işə qəbul olunarkən sınaq müddəti təyin edilməməlidir?***

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 52-ci maddəsində aşağıda göstərilən işçilərə əmək müqaviləsi bağlanılarkən sınaq müddəti:
yaşı 18-dən az olan şəxslərlə;
müsabiqə yolu ilə müvafiq vəzifəni tutanlarla;
hamilə və üç yaşına çatmamış uşağı olan qadınlara, habelə üç yaşınadək uşağını təkbaşına böyüdən kişilərə;
təhsil müəssisələrini bitirdiyi ildə ixtisası (peşəsi) üzrə ilk dəfə işə götürülən şəxslərə;
ödənişli seçkili vəzifəyə seçilmiş şəxslərə;
iki ay müddətinədək əmək müqaviləsi bağlanılan şəxslərə;
tərəflərin razılığı ilə müəyyən edilən digər hallarda müəyyən edilmir.

***Daşınmaz əmlak üzərində hüquqlar neçə gün müddətinə dövlət qeydiyyatına alınır və bununla bağlı təqdim edilmiş ərizədə nələr göstərilməlidir?***

-"Daşınmaz əmlakın dövlət reyestri haqqında» Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq ərizənin təqdim edildiyi gündən 10 iş günü müddətində daşınmaz əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır. Eyni zamanda həmin maddədə göstərilir ki, daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqlarının qeydiyyatı üçün zəruri olan mərzçəkmə və inventarlaşdırma işlərinin aparılması ilə əlaqədar daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı müddəti dövlət qeydiyyatı orqanı tərəfindən 5 iş günündək uzadıla bilər.Bu qanunun 10.1-ci maddəsinə uyğun olaraq ərizədə hüquq əldə edən fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənəd, hüquqi şəxsin isə tam adı, ünvanı, qeydiyyatı haqqında şəhadətnamə, icra hakimiyyəti orqanının tam adı və ünvanı, xahişin məzmunu və əlavə olunan sənədlər göstərilməlidir.

***Kimlər işsizlikdən sığorta ödənişi ala bilər?***

- 1 yanvar 2018-ci il tarixdən qüvvəyə minmiş "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və məşğulluq alt sistemində işsiz kimi qeydiyyata alınmış 3 ildən az olmayan müddətdə sığorta stajı olan sığortaolunanlar işsizlikdən sığorta ödənişini almaq hüququna malikdirlər.

*✍ Sevinc*

## Müsahib



*Azərbaycanda gül satışı və müşayiətedici xidmətlər sahəsində lider mövqeyi tutan "Ağ çiçəyim" şirkəti ölkədə gül mədəniyyətinin təməlini qoyan şirkət hesab olunur. "Ağ çiçəyim", eyni zamanda, Qafqaz bölgəsi üzrə yüksək Avropa standartları səviyyəsində gül xidməti göstərən ilk şirkətdir.*

# Hacı Ceyhun:

## "Ağ çiçəyim - hər kəsin çiçəyi"

*Fevralın 14-də bütün dünyada olduğu kimi Azərbaycanda da «Sevgililər günü» qeyd ediləcək. Həmin günün əsas simvollarından biri də güllər və çiçəklərdir. Bu isə o deməkdir ki, bir ilə yaxın karantin dövründə bağlı qalmış, müştərilərini itirmiş gül mağazaları bir günlük də olsa, yaxın keçmişdəki qızğın ticarət günlərini xatırlayacaqlar. Ümumiyyətlə, pandemiyanın gülü sevən Azərbaycanın gül satışı və alışına hansı təsirini göstərməsi də maraqlıdır. Bu və ya digər məsələlərlə bağlı "Həftə içi"nə müsahibə verən "Ağ çiçəyim" Şirkətlər Qrupunun rəhbəri Hacı Ceyhun güllərlə bağlı incə məsələlərə diqqət çəkdi.*

- Güllərlə işləyən adam nə qədər kobud, əzazil, qəddar olsa da, gülün incəliyi, zərifliyi, gözəlliyi onu dəyişdirir. İnsanın düşüncəsi dəyişir, güllərin əhatəsində sakitləşir, ətrafa gözəl baxır. Mən hər zaman güllərin arasında olan adamam. Maraqlıdır ki, o qədər güllərin arasından birini də olsa hər dəfə gətirib evdəki güldana qoyuram. O gülün evdə yaratdığı gözəllik, insana verdiyi rahatlıq tamam başqadır. Maraqlı fəlsəfəsi var gülün. Özünü sevdirir və sənə həyatı sevməyi təlqin edir.

Məsələn, indi tülpan, lalə vaxtıdır. Onu güldana qoyursan və görürsən ki, səhər işıq olanda açılır, axşam bağlanır. Allahın yaratdığı o gül ona verilən ömrü necə yaşayır. Çox maraqlıdır.

***- İnsan gülə baxanda üzü gülür. "Gül yaşamağa sövq edir", - desək yanılmarıq...***

- Bəli, gülün adı gülümsəmədən götürülüb. O güldür. Deyir, gül, sevin, yaşa Bir gün gülsüz olmağım mümkün deyil. Bizim üçün gülə sevgi birinci yerdə, ikinci yerdə onun satışı, biznesi durur. "Ağ çiçəyim"i açanda məqsədimiz xalqa xidmət etmək, xalqa sevgi, gözəl əhval-ruhiyyə ətrini bəxş etmək olub. Düşünürük ki, "Ağ çiçəyim" hər kəsindir.

***- Yəqin ki, "Ağ çiçəyim"in adının fəlsəfəsində təkcə ağ çiçəklərin tərənnümü dayanmır...***

- Çoxları fikirləşir ki, bu ad Şövkət Ələkbərovanın ifa etdiyi "Ağ çiçəyim" mahnısından götürülüb. Ola bilər ki, bu mahnı sonradan hansısa təkanı verib. Bu ad qoyulanda hər kəsin olan çiçəyi, gülü nəzərdə tutmuşduq. Bu ad həm də təmizliyi, paklığı, gözəlliyi ifadə edə bilər, bu öz yerində. Hər şeydən əvvəl "Ağ çiçəyim" hamımızındır - deməkdir.

***- Gülün xarakteri, gözəlliyinin həyat anlamı, bəlkə də bəşəriyyətin həyat fəlsəfəsinə bərabərdir. Güllərin də dəyişən taleləri oldu. Elə bizim Qanlı Yanvar hadisəsində "matəm gülü" deyə anılan qərənfilin taleyi kimi...***

- O, şəhidlərə yas tuta-tuta sonradan matəm gülünə çevrildi. Mən o qanlı hadisələri görmüşəm. Yetkinlik çağım idi, təsəvvür edin ki, yanvarın 18-i, 19-u günlərində əhali çox gərgin, əsəblər qabarmış vəziyyətdə idi. Bir yandan da Moskva bizi sıxırdı. Bakıya göndərilən hərbi maşınlar qırmağa gəlmişdi. 100, 200 yox, minlərlə adamı məhv etmək fikrində idilər. Bizim qərənfillər o böyük qırğının qarşısını aldı. İnanın ki, o əzazil, cinayətkar hərb maşınının qarşısını qərənfillər saxladı. Camaatı qırmağa gələn "əsgər" görürdü ki, insanlar qərənfili gətirib onun avtomatının lüləsinə taxır. Analar deyirdi ki, "Ay bala, bu silahı bizə atma". Bu hadisələri yadıma salanda kövrəlməyə bilmirəm. Qırğın baş verdi. Sonra 3-4 gün o şəhidlərin qanları, məzarları qərənfillərlə bəzəndi Qaniçən ordu öz məqsədlərinə çata bilmədi, Azərbaycan xalqı şəhidlər versə də, müstəqilliyini əldə etdi.

***- Hacı, Şəhidlər Xiyabanını bəzəyən qərənfillər də matəm gülü deyil, şəhidlik zirvəsini bəzəyən şəhid gülü kimin yad edilir. Qərənfil də bir şəhidlik məqamına ucaldı. Matəm günlərində "Ağ çiçəyim" şirkətinin gördüyü işlər nə ilə bağlı olur?***

- Təbii ki, şirkət olaraq bu matəm tədbirlərində əlimizdən gələni edirik. İstəyirik ki, işimizlə bütün insanların - cavanların, uşaqların zehnində fərqli iz buraxaq. Şəhidlərin anım günlərində yerləri bəzəyən qərənfillər, qızılgüllərlə qan yaddaşımızda başqa bir tarixi iz açmaq istədik. Dünyaya bəyan elədik ki, sülhsevər xalqıq və şəhid qanı bizim üçün müqəddəs və əzizdir, şəhid qanı gülqoxuludur. Əgər bununla da biz dövlətimiz, millətimiz üçün az da olsa nəsə edə biliriksə, bu bizim üçün şərəfdir.

***- Bu mərasimlərdə iştirakınız necə təşkil olunur?***

- Mərasimləri Bakı Şəhər İcra Hakimiyyəti təşkil edir. Dizayn hazırlanır, cənab Prezidentə göstərilir. Biz çox variantlar təqdim edirik. Neçə illərdir, Prezidentin tövsiyəsi ilə sadə tərtibatlar verilir. Şəhidlər Xiyabanında düzülən qərənfillər "şəhidin qanı" sadə simvol olaraq tərtib edilir. Yaddaşlarda qalması üçün "20 Yanvar" sözü qara qərənfillə qabardılır.

Qarşıdan Xocalı soyqırımı gəlir, orada da sadə təqdimat olacaq. Soyqırımına məruz qoyulan millətin günahsız axıdılan qanını sadə qərənfillər, əklillər, şamlar əbədiləşdirəcək.

***- Qərənfillərə nə qədər vəsait xərclənir?***

- Qərənfil ucuzdur, həm də oz məhsulumuzdur. Məsələn, bu il sifarişlə Türkiyədən qərənfillər aldıq. Antaliya şəhəri isti olduğuna görə, qışda da oradan alırıq. Dekarasiya üçün əsas qırmızı və tünd-qara rəngli qərənfillər nəzərdə tutulur.

***- Hacı, bu gün gül bazarında vəziyyət necədir?***

- Vəziyyət orta səviyyədədir. Bu, pandemiya ilə bağlı ortaya çıxan qadağalarla bağlı oldu. Toy, nişanların, kütləvi tədbirlərin keçirilməməsi gül satışına da təsir etdi. İnsanlar evlərinə qapandı. Demək olar ki, karantin müddətində heç işləmirdik, ofislərə keçib qapını arxadan bağlayırdıq. Digər tərəfdən, insanlar işləmədiklərinə görə, gül alışı da aşağı düşdü. Sərt karantin bitəndən sonra da vəziyyət dəyişməyib, çünki indi də elə ad günləri, toylar və digər tədbirlər keçirilmir. Toylar yoxdursa, gül də alınmır.

***- Pandemiya dövründə xaricdən güllər gətirə bildiniz?***

- Güllər ancaq sifarişlə gətirilir. Bu da əvvəlki illərlə müqayisə çox azdır. Bilirsiniz, bizim millət hər şeyə qiymət verəndir, zövq qatandır. Dünyada heç kəs gülü bizim qədər çox, buket halında xoşlamır. Gülü sevirlər, söz yox, amma kiməsə hədiyyə verəndə, 3-5 ədəd apararlar.

Biz isə istəyirik ki, sevdiyimiz adama bütün gülləri verək. Biz çox şeyi müştərilərimizdən öyrənirik. Sifarişləri də əsasən müştərilərin istəyi ilə veririk. Məsələn, müştəri deyir ki, 51 gül ver, 101 gül ver Bu gün qadının ad günüdür, istəyir ki, böyük bir çələng, gül səbəti, yaxud buket hazırlatsın, təqdim etsin. Xristianlarda 3-5-dənə təqdim edirlər, qutarır gedir.

Bizdə bir qızılgülün minlərlə növü olur. Əvvəllər Şüvəlanda gülçülük sovxozu olub. Sovet dövründə ən birinci gülü Pribaltikadan sonra ikinci biz verirdik, sonra o yeri Azərbaycan tutub.

İndi bütün dünyada Hollandiya üstünlük təşkil edir.

Onlar da alıb, saxlayıb satırlar. Məsələn, onlarda gülsaxlayan soyuducular çoxdur. Adi lalənin tülpan sortu Türkiyədə yaranıb. Onu götürüb aparıb Hollandiyada çoxaldıblar. Bütün dünyaya da yeridirlər ki, tülpan bizimdir, amma Tülpan Türkiyədə - İstambulda yetişdirilib.

***- Bizim gül atributumuz nədir?***

- Bizdə qərənfildir, indi o da azalıb. Hazırda "parniklər" salınır. Buzovnada, Şəmkirdə gül yetişdirilir. Buna böyük xərc lazımdır. Təkcə bir "parnik" 1 milyona başa gəlir.

***- Güllərin qiymətlərində qalxmalar müşahidə olunur, bu nə ilə bağlıdır?***

- Güllərin qiymətinin qalxması xaricdən gətirilməsi ilə əlaqədardır. Nə qədər "parniklər" yaradılsa da, bizimkilər çatdırmır. İndi çox əkilmir. Məsələn, əvvəl bütün kəndlər əkirdi, amma indi yox. İndi qərənfillər daha çox "20 Yanvar"da, "Xocalı"da satılır. Adi vaxtlarda qərənfili əkmək kəndliyə sərf etmir. Sözügedən sahəyə maliyyə qoymaq çox çətindir. Bayramlarda, yeni illərdə gülü satılan kəndli bütöv ili gözləyib, tək bir mövsüm üçün gül becərməklə heç nə götürmür. O, baha deyil, uzaq yoldan gəlirsə, qiyməti qalxır.

***- Güllər hazırda daha çox haradan gətirilir?***

- Hollandiyadan, Ekvatordan, Kolumbiyadan Qızılgül, pionlar dəbdədir və bizə baha gəlib çıxır. İndi sifariş çox azdır.

Bu il 25 illiyimizdir, necə deyərlər, bir igidin ömrüdür. Yadımza necə başladığımızı salırıq. Həmişə dünyada gül sahəsində üstün olmuşuq. Bizə baxırlar və deyirlər ki, Azərbaycandan yoxdur. Bakıya həmişə seçmə güllər gəlir. Ən yaxşı qızılgülün baş hissəsi 8 santimetr olur. Onları sifariş veririk. Bizimlə buna görə maraqlanırlar. Deyirlər ki, bunların müştəriləri necədir ki, bizdən belə keyfiyyətli mallar istəyirlər? İndi də ən güclü sifarişçilər bizik.

***- Bu sahədə bütün ölkələrdən öndə dayana bilərik, bəs niyə etmirik?***

- Gərək işin üstündə durasan, can qoyasan, sənətini sevəsən ki, uğur qazanasan. "Ağ çiçəyim" bu işdə canını qoyur ki, heç kəs şikayət eləməsin. Hər kəs öz işində məsuliyyətli olsa, hər şey gözəl olar. Gülçünün iş vaxtı olmamalıdır. Gülçü səhərə qədər gülün üstündə olmalıdır. Suyu dəyişir, çiçəklərə baxır.

Bizim dükanlar 24 saat işləyir.

***- Dövlət sizə maliyyə ayırırmı?***

- Xeyr, özəl şirkət kimi fəaliyyət göstəririk.

***- Birillik pandemiya dövründə işçilər ixtisar olundumu?***

- Biz vergini artıqlaması ilə ödədik. İşdən heç kəsi çıxarmamışıq. Qapını bağlayıb dözmüşük. Adi insanlar işdən çıxanda yardımlar eləmişik.

***- Gül dükanlarınız bağlanıbmı heç?***

- Heç bir dükanı bağlamamışıq, necə var, elə də qalıb. İki şəhididmiz, bir qazimiz var. Müharibəyə 16-17 nəfər işçimiz getmişdi, indi yenə işlərinə qayıdıblar. Şəhidimizin 17 yaşı var idi, cavan idi. Bəzədiyi, qulluq etdiyi güllər, çələnglər məzarına getdi. Gül həm də məzar bəzəyi olur Şəhidə.

✍ *Tahirə Qafarlı*

> *"Bayramlarda, yeni illərdə gülü satılan kəndli bütöv ili gözləyib, tək bir mövsüm üçün gül becərməklə heç nə götürmür.*

> *"Güllərin qiymətinin qalxması xaricdən gətirilməsi ilə əlaqədardır. Nə qədər "parniklər" yaradılsa da, bizimkilər çatdırmır.*

> *"İki şəhididmiz, bir qazimiz var. Müharibəyə 16-17 nəfər işçimiz getmişdi, indi yenə işlərinə qayıdıblar.*

## HƏFTƏ REYTİNQ

### Həftənin ŞÖHRƏTLİSİ



Azərbaycan Prezidenti İlham Əliyev Yusif Axund-zadəni təltif edib. Sərəncama əsasən, Azərbaycanda musiqi sənətinin inkişafında xidmətlərinə görə Yusif Yevgenyeviç Axund-zadə "Şöhrət" ordeni ilə təltif edilib. Qeyd edək ki, general-mayor Y. Axund-zadə Müdafiə Nazirliyi Hərbi-dəniz-orkestr xidmətinin rəisidir.

### Həftənin İSTEFASI



"Space" telekanalının qurucusu, Azərbaycan Prezidenti İlham Əliyevin bacısı Sevil Əliyeva Vaqif Mustafayevin sözügedən kanalın rəhbərliyindən uzaqlaşdırılması ilə bağlı açıqlama verib. O bu barədə "Haqqın.az" saytına danışıb. Qeyd edib ki, son zamanlar "Space" TV-nin fəaliyyəti onu da narahat edib. V. Mustafayev kanalı özü tərk etməyib, təsisçinin hüququ ilə şəxsən vəzifəsindən azad edilib.

### Həftənin GENERALLARI



Azərbaycan Ordusunun birlik komandirləri general-leytenant Rövşən Əkbərov və general-mayor Xəqani Cəbrayılov vəzifələrindən azad ediliblər. Bu barədə Müdafiə naziri, general-polkovnik Zakir Həsənov əmr imzalayıb.Müdafiə Nazirliyinin mətbuat xidmətindən faktı təsdiqləyiblər. Nazirlikdən bildirilib ki, hər iki general ehtiyata buraxılıb.

### Həftənin AÇIQLAMASI



Baş nazirin sabiq müavini Abid Şərifovun nəvəsi Nicat Mahmudovun Şəkidə hotel kompleksi tikməsi ilə bağlı məlumat yayılıb. Abid Şərifov faktı təsdiqləyib. O bildirib ki, Şəki şəhər İcra Hakimiyyəti tərəfindən istismara verilən "Şəki Park" oteli nəvəsinə məxsusdur: "Nicat mənim qızımın oğludur. Şəkidə tikinti edib. Amma ona hotel demək olmaz. Üç mərtəbəli yataqxana tipli bir yerdir. Yazıldığı qədər böyük bir kompleks deyil. Bunu böyütmək nəyə lazımdır?"

### Həftənin TƏYİNATI



Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov oğlu Sərdarı Baş nazirin müavini təyin edib. Bundan başqa, Sərdar Berdiməhəmmədov Ali Nəzarət Palatasına rəhbərlik edəcək və Dövlət Təhlükəsizlik Şurasının tərkibinə daxil olub.

### Həftənin SƏFƏRİ



Ölkəmizin tarixi dönüş nöqtəsinə şahidlik edirik. Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada keçirilən Milli Kosmos Proqramının təqdimat mərasimində deyib. "Ən önəmli hədəfimiz Cümhuriyyətimizin 100-cü ildönümündə Ayla ilk təması həyata keçirməkdir. İnşallah Aya gedirik. 2023-cü ilin sonunda yaxınmənzilli milli və hibrid raketimizlə Aya sərt eniş həyata keçirəcəyik", - Ərdoğan çıxışında qeyd edib.

### Həftənin ŞOKU



"44 gün ərzində insanları aldatdılar ki, biz qalib gəlirik və 44-cü gün təslim aktı imzalandı. Bu, həqiqətən şok idi". Bunu Ermənistanın ikinci prezidenti Robert Koçaryan müsahibəsində deyib.

Onun sözlərinə görə, Ermənistan hakimiyyəti ölkənin bütün potensialını səfərbər etmək və müharibədə qələbəyə yönəltmək əvəzinə KİV vasitəsilə xalqa yalan danışdı.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Reuters Azərbaycan Türkiyə birgə təlimlərindəki görüntünü günün fotosu seçib...**

## Azərbaycanda "qızıl exchange"ləri yaradılır

**Rəşad Həsənov,**
iqtisadçı ekspert

Azərbaycanın qızıl bazarında oyunçuların sayının artırılmasına və bazarın təşviq edilməsinə ehtiyac var. ▸▸ Səh. 5

## STATİSTİKA



■ Qadınlar kişilərlə müqayisədə iki dəfə çox göz qırpırlar.

■ Kişilər boyları 130 santimetrdən az olduqda liliput sayılırlar. Qadınlarda isə bu göstərici 120 santimetrdir.

■ İnsanın əl barmaqlarının dırnaqları ayaq barmaqları ilə müqayisədə 4 dəfə sürətlə böyüyür.

■ İnsan beynində bir saniyədə 100 000 kimyəvi reaksiya gedir.




▸▸ Səh. 7

# Kosmosda nüfuz uğrunda mübarizə